Xalqın qəzeti!

# Xalq qəzeti

№ 158 (30274) 29 iyul 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

**Azərbaycandakı erməni azlığına gəldikdə, biz artıq rəsmən bəyan etmişik ki, onların hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyası əsasında lazımınca qorunacaq. Qarabağ bölgəsində yaşayan ermənilər hər hansı digər Azərbaycan vətəndaşı qədər bərabər hüquq və təhlükəsizlik zəmanətinə malik olacaqlar.**

# Ermənistan zorakılığı dövlət siyasətinə çevirib

**Mövzuya belə bir preambula ilə başlayaq və bildirək ki, 44 günlük müharibə zamanı cəbhədə ölmüş erməni əsgərlərin naşini yaxınlarına vermir və onları xüsusi soyuducularda gizlədirdilər. Sonradan Ermənistan mediası həmin səyyar soyuducuların foto görüntülərini yayımladı. İndi İrəvandan Qarabağa yön almış "tır" karvanındakı yük avtomobillərinə baxanda yadımıza həmin səhnə düşür. Xatırladaq ki, müharibə müdddətində Ermənistan rəhbərliyi əsgər cəsədlərini üzərində məhz "Spayki" yazılmış soyuducu "tır"larda saxlayırdı. İndi Qarabağa doğru yön almış avtomobillərin üzərində də "Spayki" yazısı var…**

Ermənistanın baş naziri Nikol Paşinyanın bir neçə gün əvvəl keçirdiyi və beş saata qədər davam etmiş mətbuat konfransında söylədiklərinin fonunda İrəvanın Qarabağa humanitar yardım göndərməsi qəribə durum yaradır. Onu xarakterizə etməzdən əvvəl Ermənistandakı "Yerablur qəbiristanlığı" deyilən yerin olduğunu da xatırladaq. Axı "Spayki" soyuducu "tır"ları sonradan yollarını həmin qəbiristanlıqdan salmışdılar.

Nəzərə alaq ki, Yerabluru İkinci Qarabağ müharibəsində canını tapşırmış erməni döyüşçülərin məzarları bəzəyir. Nəzərə alaq ki, Ermənistanın Qərbpərəst, özünü demokrat adlandıran hakimiyyəti sıravi ermənilərin yolunu bir dəfə həmin qəbiristanlıqdan salıb. Deyəsən, ikinci dəfə də eyni addımı atmaq niyyətindədir. Təkcə ona görə yox ki, baş nazir Nikol Paşinyan iqtidarı qeyri-konstruktivdir və sair. Ən əsası o səbəbdən ki, bütövlükdə erməni cəmiyyəti xəstəlikdən qurtula bilmir və onun müalicəsi Yerablur qəbiristanlığının sahəsinin genişlənməsi ilə düz mütənasibdir. Yəni, məzarlığın ərazisi nə qədər böyük olsa, erməni qövmü qorxunc mərəzdən bir o qədər tez qurtular. Yeri gəlmişkən, bu fikri Ermənistan ictimaiyyətində də dilə gətirənlər az olmayıb. Təəssüf ki, onların səsi revanşist başıpozuqlarının qopardıqları vay-şivənə yenik düşüb.

*(ardı 3-cü səhifədə)*



# Peru Respublikasının Prezidenti Zati-aliləri xanım Dina Ersilia Boluarte Zeqarraya

**Hörmətli xanım Prezident,**

Peru Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Peru arasında dövlətlərarası münasibətlər xalqlarımızın mənafeləri naminə bundan sonra da inkişaf edəcək, beynəlxalq təsisatlar çərçivəsində əməkdaşlığımız daha da genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm can-sağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Peru xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 iyul 2023-cü il**

# Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana

**Əlahəzrət,**

Qardaşınız – Əbu-Dabi Əmirinin Nümayəndəsi Şeyx Səid bin Zayed Al Nəhyanın vəfatı xəbəri bizi olduqca kədərləndirdi.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə, Birləşmiş Ərəb Əmirliklərinin qardaş xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

# Sülhdən qaçan hədəfə çevrilər



**Tarix hələ belə şou-tamaşaya şahidlik etməyib. Müharibədə rüsvaycasına məğlub olan tərəf sülhə gəlmək əvəzinə, qalibin üzərinə "hücum çəkir", onu ağlagəlməz cinayətlərdə günahlandırmağa, beynəlxalq ictimaiyyətin gözündə yolkəsən, qəddar dövlət imicini formalaşdırmağa çalışır. Və yalan – böhtanlarla müşayiət olunan bu ideoloji təxribatında özünə tərəfdaşlar toplamağı da "bacarır".**

*(ardı 6-cı səhifədə)*

# Fransa aranı qarışdırmaqdan əl çəkmir



**Fransa Azərbaycanın daxili işlərinə kobud müdaxiləni davam etdirir. Ölkənin rəsmi şəxsləri açıq ermənipərəst mövqedən çıxış edərək, Azərbaycanın Laçın yolunu, guya, blokadada saxladığını bildirir, Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin humanitar böhran yaşadıqlarını iddia edir və yolun açılmasına dair çağırışlar edirlər. Azərbaycan tərəfi bu çağırışların heç bir əsasının olmadığını dəfələrlə bəyan etsə də, fransız rəsmilər öz əməllərindən qalmırlar.**

Sonuncu dəfə Fransa Xarici İşlər Nazirliyi bununla bağlı bəyanat yayıb. Nazirlik bildirib ki, Azərbaycanın atəşkəs sazişi ilə üzərinə götürdüyü öhdəliklərə zidd olan və danışıqlar prosesinə xələl gətirən Laçın dəhlizini (?) davamlı olaraq blokadaya almasından (?) təəssüflənir. Bəyanatda bildirilir ki, rəsmi Paris Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsinin iyulun 26-da Qarabağ əhalisinin humanitar vəziyyəti ilə bağlı bəyanatını tam dəstəkləyir. "Fransa Azərbaycanı üzərinə götürdüyü beynəlxalq öhdəlikləri, xüsusilə də Beynəlxalq Ədalət Məhkəməsinin 22 fevral tarixli qərarının məcburi hüquqi qüvvəyə malik müvəqqəti tədbirlərini yerinə yetirməyə çağırır. Fransa, həmçinin insanların və yüklərin Laçın dəhlizi ilə hər iki istiqamətdə sərbəst hərəkətinin bərpasına, əhalinin qaz və elektrik enerjisi ilə fasiləsiz təmin olunmasına çağırır", – deyə bəyanatda qeyd olunur.

*(ardı 8-ci səhifədə)*

# Tehranın yeni təşəbbüsünü sözdə deyil, əməldə görək



Səhifə ⇨ 8

# Azərbaycan Transxəzər qaz kəmərinin reallaşmasını fəal dəstəkləyir




Səhifə ⇨ 7

# Qan tökmə, qan ver!

Səhifə ⇨ 10

# Qeyri-neft sektoru ümumi iqtisadi inkişafı sürətləndirib

Səhifə ⇨ 7



# Unudulmaz xatirələr işığında

Səhifə ⇨ 11

# "Qala"da qal – istirahətdən razı qal



Səhifə ⇨ 9

# Ukrayna: Qərb, yoxsa Rusiya silahı...



Səhifə ⇨ 10

## “Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 fevral tarixli 936 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 fevral tarixli 936 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 94) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** “Ramiz Mehdiyev” sözləri “İsa Həbibbəyli” sözləri ilə əvəz edilsin.

**2.** “Əbülfəs Qarayev” sözləri “Adil Kərimli” sözləri ilə əvəz edilsin.

**3.** “Oqtay Şirəliyev” sözləri “Teymur Musayev” sözləri ilə əvəz edilsin.

**4.** “Ceyhun Bayramov – Azərbaycan Respublikasının Təhsil naziri” sözləri “Emin Əmrullayev – Azərbaycan Respublikasının elm və təhsil naziri” sözləri ilə əvəz edilsin.

**5.** “İbrahim Quliyev” sözləri “Arif Həşimov” sözləri ilə əvəz edilsin.

**6.** “İsa Həbibbəyli – Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti” sözləri “İbrahim Quliyev – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti” sözləri ilə əvəz edilsin.

**7.** “Ömər Eldarov” sözləri “Natiq Əliyev” sözləri ilə əvəz edilsin.

**8.** “Natiq Əliyev – Xalq rəssamı” sözləri “Ömər Eldarov – Xalq rəssamı” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## “Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 704; 2002, № 1, maddə 22; 2004, № 6, maddə 436, № 7, maddə 534; 2005, № 10, maddə 910; 2006, № 7, maddə 588; 2007, № 3, maddə 229; 2014, № 9, maddə 1027; 2015, № 9, maddə 1015, № 11, maddə 1301; 2016, № 8, maddə 1384; 2017, № 5, maddə 772, № 8, maddə 1521; 2018, № 2, maddə 175; 2019, № 9, maddə 1487; 2020, № 2, maddə 105; 2022, № 4, maddə 303, № 12, maddə 1440) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** “Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi” abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

“Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisi

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi”.

**2.** “Xüsusi Dövlət Mühafizə Xidmətinin” sözləri “Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 13 iyun tarixli 914-VIQD nömrəli Qanununun tətbiqi və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə”nin təsdiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 13 iyun tarixli 914-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 4.5-ci maddəsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti həyata keçirir;

1.2. həmin Qanunun 4.5-ci maddəsində (ikinci halda) və 8.2.1-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti həyata keçirirlər.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 4.5-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış, həmçinin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətində həqiqi hərbi xidmətdən buraxılıb həmin orqanın ehtiyatına keçirilməmiş və ya hərbi qeydiyyatından çıxarılmış hərbi vəzifəlilərin hərbi qeydiyyata alınması prosedurunun müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 213 nömrəli Qərarı ilə təsdiq edilmiş “Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatının aparılması Qaydası”nda üç ay müddətində müvafiq dəyişikliklər edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 13 iyun tarixli 914-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə”nin təsdiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82; 2015, № 2, maddə 138, № 7, maddə 831, № 11, maddə 1320; 2016, № 6, maddə 1034, № 10, maddə 1612; 2017, № 12 (I kitab), maddələr 2282, 2294; 2018, № 11, maddə 2258; 2019, № 5, maddə 847; 2020, № 7, maddə 878, № 11, maddə 1349; 2021, № 1, maddə 36; 2022, № 4, maddələr 314, 324, № 8, maddə 871; 2023, № 1, maddə 84, № 3, maddə 344, № 4, maddə 471) 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 5.2-ci bənddən “2.0.5-ci maddəsinin ikinci cümləsində,” sözləri çıxarılsın və həmin bənddə “28.6-cı maddəsinin ikinci” sözləri “28.6-cı maddəsinin üçüncü” sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 5.2-1 – 5.2-3-cü bəndlər əlavə edilsin:

“5.2-1. həmin Qanunun 2.0.5-ci və 7.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələri və öz ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti həyata keçirirlər;

5.2-2. həmin Qanunun 4.4-cü, 4.5-ci (ikinci halda), 8.2.1-ci (ikinci halda) maddələrində və 28.6-cı maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti həyata keçirirlər;

5.2-3. həmin Qanunun 4.5-ci maddəsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti həyata keçirir;”;

3.3. 5.4-cü bənddən “2.0.5-ci maddəsinin birinci cümləsində,” sözləri çıxarılsın, həmin bənddə “, 7.3-cü maddələrində” sözləri “maddəsində” sözü ilə əvəz olunsun və həmin bəndə “8.2.1-ci” sözlərindən sonra “(birinci halda)” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## Baş nazirin sədrliyi ilə Nəqliyyatı Əlaqələndirmə Şurasının iclası keçirilib



**Dünən Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə Nəqliyyatı Əlaqələndirmə Şurasının iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən redaksiyamıza bildiriblər ki, iclasda ölkədə yol və nəqliyyat infrastrukturunun yaxşılaşdırılması, Bakı şəhərində tıxac probleminin həlli, ictimai nəqliyyatda əlçatanlığın artırılması və ictimai nəqliyyatın idarəedilməsi sisteminin optimallaşdırılması, Bakı Metropoliteninin inkişaf etdirilməsi, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və digər məsələlər müzakirə olunub.

Şuranın sədri, Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin məruzəsi dinlənilib.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, ölkədə nəqliyyat mobilliyinin transformasiyası və Bakı Metropoliteninin potensialının qiymətləndirilməsi proqramlarının icrasına dair təqdimatlar keçirilib.

İclasda, həmçinin ölkədə, xüsusilə də Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi və işinin səmərəli təşkili ilə bağlı aidiyyəti qurumların rəhbərlərinin məruzələri dinlənilib, müvafiq tapşırıqlar verilib.

***“Xalq qəzeti”***

## “Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı Komissiyasının yeni tərkibinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 8 aprel tarixli 499 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı Komissiyasının yeni tərkibinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 8 aprel tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 378; 2017, № 4, maddə 561; 2018, № 5, maddə 959; 2021, № 4, maddə 324; 2022, № 5, maddə 472; 2023, № 3, maddə 343) 1-ci hissəsinin “İsa Həbibbəyli – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti” və “Tahir Salahov – Xalq rəssamı” abzasları ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## “Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə Dövlət Komissiyasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 iyun tarixli 834 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə Dövlət Komissiyasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 iyun tarixli 834 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 493, № 10, maddə 968; 2006, № 7, maddə 588, № 9, maddə 743; 2007, № 5, maddə 459; 2009, № 4, maddə 233; 2010, № 2, maddə 80, № 7, maddə 620; 2012, № 12, maddə 1291; 2013, № 3, maddə 292; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 11, maddə 1414; 2015, № 8, maddə 957; 2016, № 5, maddə 861, № 9, maddə 1518; 2017, № 11, maddə 2124; 2018, № 8, maddələr 1677, 1715; 2019, № 2, maddə 294; 2020, № 2, maddə 123; 2022, № 12, maddə 1516; 2023, № 3, maddə 391) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. “Mədəniyyət nazirinin birinci” sözləri “mədəniyyət nazirinin” sözləri ilə əvəz edilsin;

1.2. “Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi” sözləri “Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Avropa İttifaqı tərəfinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## “İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) üzrə Azərbaycan Respublikası Milli Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 mart tarixli 1937 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) üzrə Azərbaycan Respublikası Milli Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 mart tarixli 1937 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 319; 2022, № 5, maddə 530) 1-ci hissəsində “Təhsil” sözü “elm və təhsil” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## Əlicançay su anbarının tikintisi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncam*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, habelə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020–2022-ci illər üçün Tədbirlər Planı”na uyğun olaraq ölkədə su ehtiyatlarının artırılması, əhalinin içməli su təminatının yaxşılaşdırılması, əkinəyararlı torpaqlarda müasir təsərrüfatlar yaradılmasının təşviqi və əhalinin məşğulluğunun dəstəklənməsi məqsədilə **qərara alıram:**

**1.** Oğuz və Şəki rayonları ərazisində Əlicançay su anbarı tikilsin.

**2.** Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi:

2.1. Əlicançay su anbarının tikintisi ilə bağlı müvafiq tədbirlər görülməsini təmin etsin;

2.2. Əlicançay su anbarının tikintisi nəticəsində içməli su ilə təmin ediləcək yaşayış məntəqələri və suvarma suyu ilə təmin edilməsi nəzərdə tutulan əkin sahələri üzrə prioritetləşdirmə aparmaqla, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və aidiyyəti yerli icra hakimiyyəti orqanları ilə razılaşdırılmış təkliflərini 5 (beş) ay müddətində “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiyaya (bundan sonra – Komissiya) təqdim etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Şəki Şəhər İcra Hakimiyyəti, Oğuz Rayon İcra Hakimiyyəti və digər aidiyyəti dövlət orqanları (qurumları) Əlicançay su anbarının tikintisindən irəli gələn məsələlərin həlli ilə bağlı zəruri tədbirlər görsünlər.

**4.** Komissiya bu Sərəncamın 2-ci və 3-cü hissələrində nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsi məsələlərini həll etsin.

**5.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən su anbarının tikintisinin cari ildə və növbəti illərdə maliyyələşdirilməsi üçün aidiyyəti üzrə zəruri tədbirlər görsünlər.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## Kolumbiyanın yeni səfiri XİN-də

**İyulun 28-də xarici işlər naziri Ceyhun Bayramov Kolumbiya Respublikasının ölkəmizə yeni təyin edilmiş səfiri Luis Fernando Kuartas Ayala ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, Kolumbiya səfiri etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir Ceyhun Bayramov Luis Fernando Kuartas Ayalanı Azərbaycana səfir təyin olunması münasibətilə təbrik edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüş zamanı tərəflər ikitərəfli əlaqələrin əhəmiyyəti, siyasi məsləhətləşmələr mexanizminin tətbiq edilməsi, qarşılıqlı səfərlərin faydası və parlamentlərarası əlaqələrin genişləndirilməsinin vacibliyini qeyd edərək, təhsil və turizm sahələrində əməkdaşlığın daha da gücləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

***“Xalq qəzeti”***

# Ermənistan zorakılığı dövlət siyasətinə çevirib

## "Tır şousu", səyyar morqlar və bədbəxt Paşinyan

*(əvvəli 1-ci səhifədə)*

Əlqərəz, Nikolun mətbuat konfransında nələri söylədiyinə diqqət yetirək. Paşinyan bildirmişdi ki, Qarabağ, yəni oradakı separatçı rejim başına çarə qılsın. Bu baxımdan təkliflər də irəli sürmüş və demişdi ki, Xankəndi Bakı ilə dialoqa getməlidir. Əlbəttə, dialoq məntiqi bizim üçün qəbuledilməzdir. Ölkəmiz Qarabağın erməni icmasının nümayəndələri ilə danışıqların aparılmasını təklif edir. Bu deyim dialoqdan fərqli olaraq, Qarabağı tərəf qismində görmür.

Azərbaycan, sadəcə olaraq, uzun müddətdir ondan ayrı düşmüş erməni vətəndaşlarının problemləri ilə maraqlanır. Məsqəd isə həmin vətəndaşların güzəranının yaxşılaşdırılması naminə görüləcək işləri birgə müəyyənləşdirməkdir. Paşinyanın dialoq məntiqi də, əslində, Bakının baxışlarındakı kimidir. Sadəcə, ifadə tərzi fərqlidir. Ancaq bu tərz də, necə deyərlər, əl yeri qoyur. Tam mümkündür ki, İrəvan sırf dialoq ritorikası ilə sonradan hansısa separatizm meyillərini ortaya atsın. Heç şübhəsiz, Paşinyan bunu düşünməmiş deyil. Düşünür və ona görə dialoqdan söz açmaqla yanaşı, "tır aksiyası"nı da həyata keçirir.

Nikol çalışır ki, beynəlxalq aləm Ermənistanın nəhəng Qarabağ aktivliyini görsün. Yeri gəlmişkən, həmin aktivliyi İrəvan küçələrində Qarabağa dəstək aksiyaları düzənləməklə də göstərmək istəyir. 1988-ci ildəki metodu işə salır. Ancaq o zamanda fərqli olaraq, indi Ermənistan rəhbərliyinin hərəkəti acizlikdən və özünə bəraət qazandırmaqdan başqa bir şey deyil. Yəni, Paşinyan Qarabağ üçün hər şeyi etdiyinin görüntüsünü formalaşdırır. Hər halda, hazırda vəziyyətin 1988-ci ildəki kimi olmadığını anlamamış olmaz. Axı, Azərbaycan da ötən əsrin sonlarına doğru olan Azərbaycan deyil.

Məsələyə digər rakursdan yanaşaq. Qeyd edək ki, Nikolun mətbuat konfransında səsləndirdiyi fikirlər ermənipərəst dairələri də hərəkətə gətirib. Spayki "tır"larının Azərbaycan-Ermənistan şərti sərhədində - Laçın rayonu ərazisindəki Həkəri körpüsü üzərində yerləşən nəzarət-buraxılış məntəqəsi həndəvərində görünmələri, eyni zamanda, həmin hərəkətliliyin nəticəsidir. Çox güman ki, yük avtomobillərinin sürücülərinə özləri ilə azuqə götürmək də tapşırılıb. Çünki Azərbaycan ərazisinə keçə bilməyəcəkləri, ilişib-qalacaqları çox yaxşı məlumdur.

Necə də ilişməsinlər, axı, Paşinyan administrasiyası sərhəddə bayrağımızı qaldırmaq istəyən Azərbaycan hərbçilərinə atəş açılması faktını araşdırmayıb, hadisəyə görə tədbir görməyib, məsuliyyətini etiraf etməyib. Üstəlik, Həkəri sərhəd keçidindən Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələrinin müşayiət etdikləri yüklərin nə üçün qaçaq mal olduğu sualına cavab tapılmayıb. İrəvan səmimi davranıb bu məsələlərə aydınlıq gətirməkdənsə, ənənəvi "metoduna" əl atır. Ancaq…

Ermənistan hakimiyyəti "tır şousu", "tır aksiyası" olaraq adlandırılmış bu hərəkəti ilə sanki çırpınmaqdadır. Aksiya (şou – red.) boğulanın saman çöpündən yapışmasına bənzəyir. Nəzərə alsaq ki, Paşinyan Qarabağ da daxil olmaqla, 86,6 min kvadratkilometrdə Azərbaycanın ərazi bütövlüyünü tanıyıb, üstəlik, bir neçə gün əvvəl bölgədəki separatçı rejimə faktiki olaraq yolun sonuna gəlindiyinə dair mesaj verib, o zaman hazırda sərhəddə baş verənləri nə ilə əlaqələndirək? Nikol yolu uzatmaqmı istəyir?

Xeyr, Paşinyan yolu uzatmaq istəyənlərin, daha doğrusu, Laçın yolunu əvvəllər olduğu kimi, açıq darvaza kimi görmək arzusu ilə alışıb-yananların oyunlarında alətə çevrilib. Çox güman, Nikol onlara da bildirib ki, dediklərini edir, amma sonra başlarına çarə qılsınlar.

Ümumən, Paşinyan Azərbaycan–Ermənistan münasibətləri kontekstində hansısa razılaşmalar əldə olunanda, bu sayaq qeyri-ordinar addımlar atmaq üzrə püxtələşib. Onun qətiyyətsizliyi aşkardır. Vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını verib uşaqlıq etdiyi kimi, yenə də eyni ampluadadır. O zaman da elə bilmişdi ki, beynəlxalq ictimaiyyət ona kömək edəcək, hazırda da oxşar düşüncədədir. Çox güman, sözügedən bəyanatı verəndə də kimlərinsə felinə uymuşdu. İndi Yerablur qəbirstanlığında övladı uyuyan erməni anaları da soruşurlar ki, Ermənistan hakimiyyəti Azərbaycanla bacarmayacaqdısa, nə üçün onların balalarını qırğına verdi? Sosial şəbəkələrin erməni seqmenti həmin anaların qəbirstanlıqdan etdikləri fəryad paylaşımları ilə doludur. Nəinki Nikola, eləcə də bütün ermənipərəstlərə başqa anaların ah-nalələri lazımdırsa, buyursunlar. Çünki hadisələr ona doğru gedir.

Bir azdan Ermənistanda "tır" sürücülərinin analarının, qohum-əqrəbalarının fəryadları da baş qaldıra bilər. Onlar çox haqlı olaraq soruşa bilərlər: bir halda ki, Paşinyan Qarabağ ermənilərinin Bakı ilə anlaşmalı olduğunu bildirir, o zaman nə üçün sürücülər günün istisində sərhəddə qalmalıdırlar? Prinsipsiz Paşinyanın və ermənipərəstlərin bunu da dedizdirmələri tam mümkündür. Çünki hər kəsə yaxşı məlumdur ki, Azərbaycan öz mövqeyindən bir addım da geri durmayacaqdır.

Bəli, Azərbaycan prinsiplərindən çəkilməyəcək, Qarabağa tam sahiblənmək haqqını əldə edəcəkdir. Sərhəddəki "tır"lar orda qalacaq, Ermənistan hakimiyyətinin və xəstə erməni ictimai rəyinin təmsilçilərinin dili ilə desək, hər cür xarici təpkiyə rəğmən, Qarabağda humanitar böhran davam edəcək. Belə bir durumda vəziyyəti dəyişmək üçün bir yol qalacaq – müharibə. Yerablur qəbirstanlığından, "Spayki" səyyar morqlarından təsadüfən söz açmadıq.

Bir daha dialoq barədə. Qeyd edək ki, N.Paşinyan administrasiyası əvvəllər Bakı–Xankəndi dialoqu haqqında söz açanda, bunun beynəlxalq mexanizmlərinin işlənib-hazırlanmalı olduğunu bildirir, manipulyasiyaya yol verirdi. Nikolun mətbuat konfransında söylədikləri isə onu göstərir ki, artıq mexanizm-filan yoxdur. Deməli, rəsmi İrəvanın nəzərindəki dialoq məntiqi də keçərsizdir. Bir daha bildirək ki, dialoqun konkret tərəfləri olur. Xankəndi isə heç bir halda Bakı üçün tərəf deyil.

Nəticədə bu gün dialoqun yerini, belə demək mümkünsə, "tır"lar tutub. Daha doğrusu, "tır"lar Ermənistan hakimiyyətinin bütün konstruktiv meyillərini, obrazlı desək, tapdalayıb keçib. Bu isə ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı növbəti təxribatdır. Təxribata qarşı isə cavab mütləq olacaqdır. N.Paşinyan necə ki, hakimiyyətə gəldikdən bir il sonra həmin vaxtadək Qarabağ mövzusunda aparılan danışıqlara əhəmiyyətsiz yanaşmışdı, indi də eyni yolu getməkdədir. Belə görünür, tarixin təkrarlanması qaçılmazdır.




Bəli, tarix təkrarlana bilər. Mövcud xüsusda sonda bir məqamı da vurğulayaq. İndiyədək Ermənistan hakimiyyətinin çeşidli aksiyaları, şouları, təxribatları heç bir fayda verməyib. Beynəlxalq ictimaiyyət iki-üç mənasız qətnamədən başqa İrəvana hansısa real dəstək verməyib. Azərbaycan Ermənistan "tır"larını Qarabağa buraxmayacaqsa, onlar aylarla sərhəddə dayanacaqlar. Ermənipərəst dairələr isə həmişə olduğu kimi, danışıb-danışıb, öz aləmlərində Azərbaycana təzyiq göstərib sakitləşəcəklər. Bəs sonra? Sonra bir yol qalır - Yerablur qəbirstanlığı. Ermənistan hakimiyyəti və xaricdəki havadarları unutmasın və tam əmin olsunlar ki, bu dəfə Yerablurda torpağa tapşırılan erməni dövlətçiliyi olacaq. Onu səyyar morqlarda dondurub saxlamaq şansı belə qalmayacaqdır.

**Ə.RÜSTƏMOV, "Xalq qəzeti"**

---

# Hayastan "tır"larını Rusiyanın "üstünə sürür"

## *Bu ölkənin "günah keçisi" kimdir?*

**Ermənistan hakimiyyətinin Qarabağa yardım aparan yük avtomobillərinin bölgədəki Rusiya sülhməramlılarından cavab alınana qədər sərhəd zonasında qalacağı ilə bağlı qərarı var. Sülhməramlıların isə belə bir məsələyə dair cavabının olmayacağı məlumdur. Kreml istəyəcək ki, qərarı rəsmi İrəvan özü versin. Yəni, faktiki olaraq, Qarabağ ermənilərini düşünən (düşünməyən – red.) tərəf Ermənistan hakimiyyəti olsun. Nəticədə baş nazir Nikol Paşinyan administrasiyasının bölgənin erməni sakinlərinin aqibətinə görə Moskvanı qınamaq istəyi iflasa uğrasın. Nəzərə alaq ki, Rusiya bu iflası həm də Ermənistan hakimiyyətinin iflasına aparan yol olaraq dəyərləndirir. Paşinyan isə məsələnin məğzini gözəl bilir.**

Bütün bunlar onu deməyə əsas verir ki, hazırda İrəvan tərəfindən həyata keçirilən "tır aksiyası"nın və ya "tır şousu"nun bir hədəfi Azərbaycandırsa, digəri Rusiyadır. Bakı bölgəni humanitar fəlakət səviyyəsinə gətirməkdə, Moskva isə buna göz yummaqda günahlandırılır. Beləliklə, Paşinyan məsuliyyəti üzərindən atmağa çalışır. Ancaq vurğulamaq istədiyimiz məqam yalnız bu deyil. Məsələnin digər tərəfinə yazının sonunda aydınlıq gətirəcəyik.

Diqqət yetirək, hazırda Ermənistanda Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri – Ceyhun Bayramovla Ararat Mirzoyanın Moskvada Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun vasitəçiliyi ilə keçirilmiş görüşü aktiv müzakirə edilməkdədir. Daha doğrusu, görüşün bir detalı. Söhbət Lavrovun Ermənistan hakimiyyətinin Qarabağ ermənilərini Bakı ilə dialoqa inandırmaq yönümlü fikirlərindən gedir. Hazırda erməni ictimai rəyi Paşinyanın da bir neçə gün öncəki mətbuat konfransında səsləndirdiyi oxşar məzmunlu fikirləri bir kənara qoyub, Rusiya XİN başçısının dediklərinə köklənib. Yəni, Ermənistanda Moskvaya münasibətdəki antipatiyanın hazırkı dalğasını məhz bu məqam təşkil etməkdədir.

Ermənistanın siyasi dairələri ölkə hakimiyyətinin əvvəlki tezislərini təkrarlayırlar. Onlar Xankəndi-Bakı dialoqu adlandırdıqları avantüranın beynəlxalq mexanizmlər formalaşmadan gerçəkləşməsini məqbul saymırlar. Nəzərə alaq ki, bu mexanizmlərin hətta yalnız kağız üzərində mövcudluğu belə, Qarabağdakı separatçı rejimi ayrıca tərəf qismində təsdiqləyir. Buna Azərbaycan heç bir halda razı ola bilməz. Ermənipərəstlər və erməni siyasilər isə belə düşüncədədirlər ki, beynəlxalq mexanizmlərsiz dialoq Bakının mənafeyinin nəzərə alınmasıdır. Ölkəmizin mövqeyi isə budur: dialoq yox, Qarabağın erməni icmasının nümayəndələri ilə danışıqların aparılması, uzun müddət mərkəzdən ayrı düşmüş vətəndaşların problemlərinin öyrənilməsi və onların köməyi ilə həmin problemlərin aradan qaldırılması. Böyük anlamda götürsək, məsələni bir ifadə ilə də əvəzləyə bilərik. Söhbət reinteqrasiyadan gedir.

Bəli, hazırda Ermənistan siyasiləri və xaricdəki ermənipərəstlər Rusiyanı Azərbaycanın reinteqrasiya məntiqinə uyğun davranmaqda ittiham edirlər. Deməli, sərhəd zonasında, belə demək mümkünsə, lövbər salmış "tır"lar həm də Rusiyanı "günah keçisi" etmək niyyətinin gerçəkləşməsi üçündür. Yeri gəlmişkən, Ermənistan hakimiyyəti indiyədək Bakı–İrəvan münasibətləri fonunda əlinə düşən hər fürsətdə Kremlə ittiham yağdırmaqdan çəkinməyib.

Yada salaq ki, qatı ermənipərəst mövqeyi ilə seçilən Fransanın Prezidenti Emmanuel Makronun Moskvanın öz müttəfiqi olan İrəvanın mövqelərini satmaqda günahlandırması kimi əcayib siyasi presedent var. Bu sıraya Paşinyan administrasiyasının Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının timsalında Rusiyanın Ermənistanın maraqlarına etinasız yanaşdığını, Azərbaycana qarşı cəbhə açmadığını açıqlayan fikirlərini də əlavə etmək mümkündür.

Ekspertlər isə hesab edirlər ki, Ermənistan və Azərbaycan nazirləri arasında Moskvada keçirilən görüş, Rusiyanın vasitəçi kimi təkcə nəqliyyat kommunikasiyalarının açılması



məsələsindən deyil, hər iki ölkə arasında danışıqlar prosesinin bütün detallarından xəbərdar olduğunu nümayiş etdirdi. Məsələn, erməni ekspert Tiqran Qriqoryan bildirir ki, sülh müqaviləsinin bağlanması ilə bağlı danışıqlar kifayət qədər aydın gündəmə malikdir və onu dəyişdirmək mümkün deyil. Tərəflər mövcud istiqamətdə irəliləyiblər. Bu baxımdan indiki mərhələdə Moskvanın prosesə öz təkliflərini və ya düzəlişlərini verməsi yox, onun danışıqlar prosesində vasitəçi qismində iştirakının davamı vacibdir. Mövcud məqam isə Rusiyanın Xarici İşlər Nazirliyinin bəyanatında qeyd olunub. Bəyanatda yalnız bir şərt irəli sürülür ki, o da danışıqların Moskvada baş tutması və sülh sazişinin də orada imzalanmasıdır. Yeri gəlmişkən, Lavrovun dilindən səslənmiş həmin bəyanatda başqa məqam da var ki, onun izahını da sona saxlamışıq.

Qeyd edək ki, T.Qriqoryanla eyni düşüncədə olan erməni ekspertlərin sayı az deyil və Rusiya, eləcə də ölkənin XİN rəhbəri Sergey Lavrov onların müxtəlif məzmunlu fikirlərində sərt tənqidə məruz qalmaqdadır. Belə bir durumda qarşı tərəfdən də reaksiyalar var. Məsələn, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Beynəlxalq Araşdırmalar İnstitutunun aparıcı elmi işçisi Nikolay Silaev S.Lavrovun bəyanatında erməni tərəfinin danışıqlardakı mövqeyini pozacaq heç bir şey görmədiyini vurğulayıb. "Ermənistan Azərbaycanın, Qarabağ da daxil olmaqla, ərazi bütövlüyünü tanıyıb. Əgər bu tanınma baş veribsə, o zaman sual yaranır: Qarabağ ermənilərinin hüquqları və təhlükəsizliyi necə təmin edilməlidir? Bu haqda danışarkən, milli azlıqların hüquqlarına dair beynəlxalq konvensiyalara və ölkələrin milli qanunvericiliyində milli azlıqların hüquqlarının müdafiəsi məsələsinə istinad lazımdır", – deyən politoloq məsələni açıq-aydın şəkildə qoyması ilə fərqlənir.

Yeri gəlmişkən, Rusiyanın ictimai fikrində də politoloq Silayevin diqqətə çatdırdığımız düşüncələrinə bənzər fikirləri vurğulayanlar yetərincədir. Yəni təxminən belə: Qarabağı Azərbaycana vermisinizsə, biz nə etməliyik? Elə isə sonda üzərinə gələcəyimiz məqama keçid alaq.

Bəli, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyıbsa, bu oyunbazlıqlar nə üçündür? Axı, ortada kifayət qədər aydın formul var. Ancaq nəzəri baxımdan da olsa, Bakı-İrəvan münasibətlərinin son durumu müstəvisində Ermənistan–Rusiya gizli razılaşması ehtimalından söz açaq. Nəyə görə bu məqamı qabartdıq? Bəli, məlumdur ki, Lavrovun haqqında söz açdığımız açıqlaması erməni cəmiyyətində geniş əks-səda doğurub. Onu da vurğuladıq ki, Ermənistan hakimiyyəti "günah keçisi" qismində Rusiyanı göstərmək yolunu tutur.

Ancaq bir məqamı düşünməyə ehtiyac var. Yekun nəticədə hazırkı gərgin durum Kremlin mənafeyinə tam uyğundur. Əvvəldə də bildirdik ki, İrəvan Rusiya sülhməramlılarından cavab gözləyir. Cavab olmasa, qeyri-müəyyənlik davamlı xarakter alacaq, beləcə Azərbaycanın Qarabağa tam sahiblənməsinin qarşısı alınacaq. Müvafiq olaraq, Azərbaycan–Ermənistan danışıqlar prosesi də iflasa uğrayacaqdır. O danışıqlar ki, onların əldə etdiyi nəticələr Rusiyaya da sərfəli deyil. Axı, Lavrov iyulun 25-də keçirilmiş üçtərəfli görüşlə bağlı söz açarkən, yalnız Ermənistan hakimiyyətinin Qarabağ ermənilərini Azərbaycanın səmimiyyətinə inandırmasından danışmamış, başqa mətləblərdən də bəhs etmişdi.

Mələsən, Lavrov onu da demişdi ki, Qərbdə aparılan danışıqlar mənasız gündəm və razılaşmaların əldə olunduğu pafosuna köklənməməlidir. Budur, İrəvanın "tır aksiyası" ortada hansısa razılaşmanın olmadığından, tərəflərin əsas məsələdə anlaşmadığından xəbər verir. Deməli, Lavrovun "məntiqi" özünü doğruldur.

Sonda qeyd edək ki, İrəvanın "tır şousu", Qarabağda humanitar fəlakət ritorikası fonunda, Azərbaycan–Ermənistan münasibətlərinin ciddi əsəb gərginliyi mərhələsindən keçir. Bu mərhələdə təmkinli olmaq şərtdir. Azərbaycan təmkinini nümayiş etdirir. Ancaq səbrin və təmkinin də bir həddi var. Onu da nəzərə alaq ki, saman çöpündən yapışan Ermənistan üçün "tır aksiyası" Qarabağ müstəvisindəki dirənişin son akkordudur. Bundan sonrası müharibədir. İrəvan savaşa razı və hazırdırsa, buyursun.

**Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"**

## F.B.Musayevın Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Fuad Bəkir oğlu Musayev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## B.E.Hüseynovun Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Babək Elbəniz oğlu Hüseynov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## A.S.Cavadovanın Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Arzu Sahib qızı Cavadova Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## Z.T.Mustafayevanın Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Ziba Tacəddin qızı Mustafayeva Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## İ.F.Zərgərlinin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** İsmayıl Fikrət oğlu Zərgərli Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## A.F.Məmmədovun Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Anar Fərruh oğlu Məmmədov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## Ə.E.İsayevin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Əfqan Elçin oğlu İsayev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## D.Ə.İskəndərovun Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Daşqın Ələm oğlu İskəndərov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## Y.A.Lətifovun Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Yaşar Aydın oğlu Lətifov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## S.M.Qasımovun Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Süleyman Mehrəli oğlu Qasımov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## X.R.Məmmədovun Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Xalik Rəfi oğlu Məmmədov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

## B.Ş.Bədəlovun Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bədəl Şamil oğlu Bədəlov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 iyul 2023-cü il**

# Azərbaycan XİN Ermənistanın xarici işlər nazirinin əsassız iddialarına cavab verdi

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan iyulun 27-də mətbuata müsahibə zamanı Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı ərazi iddiaları irəli sürməklə yanaşı, danışıqlar prosesini və əldə edilmiş razılıqları, eləcə də tarixi faktları kobudcasına təhrif edən əsassız spekulyasiyalar ilə çıxış edib.**



Bu barədə A.Mirzoyanın müsahibə zamanı səsləndirdiyi fikirlərə dair Azərbaycan Xarici İşlər Nazirliyinin şərhində qeyd olunub.

Bildirilib ki, Ermənistan tərəfinin bu günədək müxtəlif beynəlxalq platformalarda verdiyi vədlərdən və üzərinə götürdüyü öhdəliklərdən boyun qaçıraraq həyata keçirdiyi anti-Azərbaycan kampaniyası, o cümlədən sülh sazişi üzrə danışıqların və beynəlxalq vasitəçilərin səylərini heçə endirən ritorikası Ermənistanın bölgədə sülh və sabitlikdə maraqlı olmadığını bir daha sübut edir.

"Azərbaycanın erməni sakinlərin reinteqrasiyası səylərinə dəstək vermək əvəzinə, bu istiqamətdə öz təhrikçi və heç bir məntiqə sığmayan arzularının siyahısını təqdim edən Ermənistanın xarici işlər nazirinin aqressiv ritorikasına beynəlxalq ictimaiyyət tərəfindən müvafiq qiymət verilməsi xüsusi əhəmiyyət kəsb edir.

Bununla yanaşı, keçmiş Ermənistan–Azərbaycan münaqişəsinin əsl səbəbləri və mahiyyətini təhrif edən, azərbaycanlıları Ermənistan ərazisində hədəf almaqla, onları qətlə yetirməklə, Azərbaycan ərazilərini işğal etməklə, kütləvi qırğınlar törətməklə başlatdığı münaqişənin səbəbinin "Dağlıq-Qarabağın əhalisinin hüquq və təhlükəsizliyi" məsələsi olduğunu iddia edən, "Dağlıq-Qarabağ əhalisi və ərazisi" kimi qondarma məvhumları təkrarlayan Ermənistan xarici işlər nazirinin tarixi səhvlərdən dərs çıxarmaması ciddi təhdid və təhlükə mənbəyidir.

Xarici işlər naziri A.Mirzoyanın azərbaycanlıların indiki Ermənistan ərazisindəki torpaqlarından zor gücünə qovulması faktını inkar etməsi, Qərbi Azərbaycan İcmasının hüquqları ilə Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqları arasında paralel yanaşma tətbiq olunmadığını iddia etməsi və bu barədə aparılmış danışıqları inkar etməsi, Ermənistanın aidiyyəti beynəlxalq öhdəliklərini, konvensiyalar çərçivəsində məsuliyyətini pozması, o cümlədən, sistemli və məqsədyönlü şəkildə onilliklər ərzində həyata keçirdiyi etnik təmizləmə siyasətinə bəraət qazandırması niyyətindən xəbər verir.

Ermənistan ərazisində yaşayan dinc azərbaycanlıların fiziki məhvi, onlara qarşı qanlı qırğınlar törədilməsi, hədə-qorxu vasitəsilə əhalinin zorla köçürülməsi tarixi bir faktdır. Ermənistan tərəfinin təxribatçı iddialarına baxmayaraq, indiki Ermənistan ərazisində azərbaycanlı əhaliyə qarşı zorakılığın və deportasiyanın miqyasına dair tam təsəvvürə malik olmaq üçün xarici işlər naziri Ararat Mirzoyanın bölgədə azərbaycanlı və erməni əhalinin nisbətində hansı dəyişikliklər baş verdiyi ilə tanış olması kifayətdir.

Ermənistan xarici işlər naziri anlamalıdır ki, Qarabağ bölgəsinin erməni sakinlərinin hüquqları bölgənin azərbaycanlı əhalisinin hüquqlarından heç zaman üstün ola bilməz və Azərbaycan, ərazisində yaşayan müxtəlif etnik xalqlara münasibətdə yalnız bərabər yanaşma tətbiq edir və edəcək.

İndiyə qədər heç bir razılaşmaya və öhdəliyinə riayət etməyən Ermənistanın Azərbaycanı xəyali razılıqları inkar etməkdə təqsirləndirməsi, Ermənistanın öz mümkün təxribatlarını ört-basdır etməyə yönəlmiş bir addımdır. Ermənistanın bu destruktiv fəaliyyətləri beynəlxalq ictimaiyyət tərəfindən qınanmalı və onların qarşısı alınmalıdır", – deyə XİN-in şərhində vurğulanıb.

***"Xalq qəzeti"***

# Ermənilər AZAL-ın təyyarəsinə yenə radiomaneələr tətbiq edib

**Azərbaycanın hava məkanından istifadə etməklə uçuşlar yerinə yetirən yerli və xarici aviaşirkətlərin sərnişin təyyarələrinin GPS peyk naviqasiya sistemlərinə qarşı Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən radiomaneələrin tətbiqi son günlərdə intensivləşib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, iyulun 24-də Bakı–Füzuli marşrutu üzrə uçuş yerinə yetirən "Azərbaycan Hava Yolları"nın ATR-45 tipli sərnişin təyyarəsinə saat 10:49-dan 11:16-dək, iyulun 25-i Budapeşt–Bakı marşrutu üzrə uçuş yerinə yetirən Çexiya Hava Yollarının C-680 tipli sərnişin təyyarəsinə saat 14:48-dən 15:25-dək və iyulun 27-i Bakı–Qəbələ və əks istiqamətdə uçuş yerinə yetirən "Azərbaycan Hava Yolları"nın ATR-45 tipli sərnişin təyyarəsinə saat 14:08-dən 14:30-dək və saat 15:04-dən 15:26-dək radiomaneələrin tətbiqi nəticəsində GPS peyk naviqasiya sistemlərində fasilə yaranıb.

Bu faktlar və əvvəllər baş vermiş eyni hadisələr barədə Rusiya sülhməramlı kontingentinin komandanlığı tərəfimizdən məlumatlandırılıb.

Hava məkanımızdan keçən uçuşların təhlükəsizliyinə ciddi təhdid yaradan bu təxribatlara qarşı Rusiya sülhməramlı kontingenti tərəfindən bu günədək heç bir tədbir görülməyib.

***"Xalq qəzeti"***

# Tarix həqiqət müstəvisində

*Tarix həmişə hər şeyi öz yerinə qoyur.*

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**



## Heydər Əliyev erməni separatizminə qarşı mübarizədə

**Mətləbə keçməzdən öncə erməni separatizminin və erməni millətçiliyinin tarixi köklərinə nəzər yetirmək zəruridir. Tədqiqatlar göstərir ki, dünyaya səpələnmiş erməniləri öz ətrafında birləşdirən erməni-qriqorian kilsəsi hər zaman “yeni vətən” axtarışında olub. Əsrlər boyu ərazisində pərakəndə halda yaşadıqları Osmanlı dövlətinə qarşı xəyanət edən ermənilər Vatikandan, eyni zamanda, Roma imperiyasına daxil olan bir sıra dövlət başçılarından kömək istəmiş, beləliklə “erməni məsələsi”nin gündəliyə gəlməsində ilk addımlarını atmışlar. Reallıq belə bir həqiqəti təsdiqləyir ki, erməni separatizminin və erməni millətçiliyinin kökündə qriqorian kilsəsinin uydurduğu “erməni məsələsi” durur. XVIII əsrin əvvəllərindən etibarən “erməni məsələsi” özünün yeni mərhələsinə daxil olmuş, Qərb dövlətlərinin diqqətini “erməni məsələsi”nə yönəldilməsində “mxitarçılar” xüsusi olaraq seçilmiş, erməniliyin mifik arzularını erməni kütləsinin beyninə yeritmişlər.**

“Erməni məsələsi”nin növbəti mərhələsi XIX əsrin birinci otuzilliyində başlamış, 1828-1829-cu illərdə Qacarlar İranından və Osmanlı imperiyasından Azərbaycanın Arazdan şimalda yerləşən torpaqlarına kütləvi şəkildə 120 minə yaxın erməni köçürülmüşdür. Onların böyük hissəsi İrəvan torpaqlarında məskunlaşdırılmış və baş verən demoqrafik proseslər nəticəsində bölgədə pərakəndə ermənilərin xüsusi çəkisi süni şəkildə artmışdır. İran və Osmanlı imperiyası ilə sərhəddə xristian elementindən təşkil edilmiş bufer zona yaratmaq istəyən Rusiya imperiyası 1828-ci il martın 21-də Naxçıvan və İrəvan xanlıqları ərazisində “Erməni vilayəti”inin yaradıldığını elan etmişdir. “Erməni məsələsi”nin bu səhifəsini adlayan və öz məkrli siyasətini davam etdirən qriqorian kilsəsi erməni lobbisi ilə tandemdə hərəkət edib. XIX əsrin son rübündə “erməni məsələsi”ni beynəlxalq münasibətlər sisteminə gətirə bilmiş və Osmanlı İmperiyasına qarşı açıq mübarizəyə başlasa da, ermənilik qarşıya qoyduğu məqsədə nail ola bilməmişdir. Şərqi Anadoluda baş verən erməni qiyamları Sultan Əbdülhəmid hökuməti tərəfindən dayandırılmış və “erməni məsələsi” Anadoludan Qafqaza transfer edilmişdir.

XX əsrin əvvəllərində erməni millətçilərinin Cənubi Qafqazda, o cümlədən Azərbaycan torpaqlarında törətdikləri qanlı cinayətlər erməni əfsanələrindən olan “Böyük Ermənistan” ideyasını reallaşdırmamışdır. 1917-ci il oktyabr çevrilişindən sonra öz məkri siyasəti üçün əlverişli məqam əldə etmiş ermənilik öz riyakar məqsədlərini həyata keçirmək üçün müsəlmanlara qarşı soyqırımı törətmişdir. Erməni silahlı dəstələri təkcə 1918-ci ilin martına qədər İrəvan quberniyasında təqribən 135 min nəfər soydaşımızı soyqırımına məruz qoymuşlar. Bu dövrdə erməni millətçilərinin dinc əhaliyə qarşı törətdikləri soyqırımı Azərbaycanın başqa bölgələrində də baş vermiş, türk-müsəlman dünyasına nifrət edən S.Şaumyanın göstərişi ilə daşnak-hnçak quldur dəstələri 1918-ci ilin martında Bakıda 12 mindən çox Azərbaycan türkünü qətlə yetirmişdilər. Lakin azərbaycanlıların kütləvi şəkildə fiziki məhvi S.Şaumyanın anti–Azərbaycan planlarına uyğun gəlmirdi. O, Azərbaycan türklərinə nifrətini gizlətmədən Bakıda mart soyqırımının dəhşətlərini yaşamış şəhər əhlinə həyasızcasına bəyan etmişdi: “Sizin hamınızı bundan öncə öldürməliydik”.

Törətdiyi qanlı cinayətlərdən usanmayan erməni millətçiləri 1918-ci ilin yayında “erməni məsələsi”nin tərkib hissəsi olan qondarma “Dağlıq Qarabağ” məsələsini Azərbaycan tarixinə gətirmiş, 1920-ci il aprel çevrilişindən sonra Azərbaycanın tarixi torpaqlarına ərazi iddialarını reallaşdırmaq ümidlərini bolşevik Rusiyasına bağlamışlar. Cənubi Qafqaz meqaregionunda Sovet hakimiyyətini “süngü ucunda” yaymaq siyasətini həyata keçirən bolşeviklər daşnaklarla əlbir olmaqdan çəkinmir və Ararat Respublikası ərazisində sovet hakimiyyəti elan edildikdən sonra (29 noyabr 1920-ci il) erməni tərəfi Zəngəzur qəzasının qərb hissəsini ələ keçirə bilir. Lakin ermənilərin Naxçıvanla bağlı ərazi iddiaları Qars müqaviləsi ilə (13 oktyabr 1921-ci il) dayandırılır. Yaranmış vəziyyətdə erməni millətçiləri Qarabağa qarşı ərazi iddialarından imtina etmədiklərini bildirir, 1921-ci il iyulun 4 və 5-də Rusiya K(b) MK–nın Qafqaz Bürosunun iclasında bolşevik ermənilər Qarabağ ərazisinin bir hissəsini tələb edirlər. Qeyd etmək lazımdır ki, tarixin heç bir dönəmində “düzən” və “dağlıq” hissələrə bölünməyən Qarabağı erməni millətçiləri bolşeviklərin köməyi ilə Qarabağın dağlıq hissəsində 1923-cü il iyulun 7–də Dağlıq Qarabağın Muxtar Vilayətinin (DQMV), (1937-ci ildən etibarən Dağlıq Qarabağ Muxtar Vilayəti – red.) elan edilməsinə nail olur və tarixə təhrif olunmuş bir məfhum – “Dağlıq Qarabağ” anlayışını gətirmişlər. Lakin DQMV-nın yaranması belə, erməni məkrini dayandırmır.

Təəssüf ki, tarixi saxtalaşdırıcılar onilliklərlə Qarabağ həqiqətlərini təhrif etməyə çalışmış, erməniliyin dəyirmanına su tökmüşlər. Belə ki, XX əsrin sonlarında tarixin saxtalaşdırıcıları xüsusi canfəşanlıq göstərmişlər. Bu sırada XX əsrin əvvəllərində Qafqazda yer quruluşu işlərinə rəhbərlik etmiş Mixail Skibitskinin oğlu Aleksandr Mixayloviç Skibitski xüsusi olaraq seçilmişdir. O, 1991-ci ildə “erməni məsələsi”nə dəstək göstərdiyini gizlətməmiş, “Soyuz” həftəlik qəzetində nəşr olunan “Qarabağ böhranı” məqaləsində qondarma “Dağlıq Qarabağ” məsələsinin köklərini pərdələyərək yazmışdır ki, “nə qədər ağır olsa da, biz etiraf etməliyik ki, insan talelərinə ağır zərbə vurmuş Qarabağ məsələsi, əslində, dezinformasiya nəticəsində meydana çıxmışdır”.

XX əsrin 20-ci illərindən başlayaraq erməni separatçılarının ideoloqlarından olan A.Mikoyan, Q.Arutyunyan, sonralar Q.Xolopov, S.Xanzadyan, S.Kaputikyan, Z.Balayan və başqaları Dağlıq Qarabağla bağlı erməniliyin məkrli planlarını davamlı olaraq aparmışlar. İkinci Dünya müharibəsindən sonra erməniliyin gündəmə gətirdiyi Dağlıq Qarabağ və Naxçıvan məsələləri ermənilərin xeyrinə həll olunmadığından, 1947-ci ilin sonlarında erməni millətçiləri Azərbaycanın tarixi torpağı – İrəvan məkanında etnik təmizləmə aparmaq planını ortaya atmış və Moskvanın razılığı ilə Azərbaycan türklərinin Ermənistan SSR ərazisindəki ata-baba torpaqlarından qovulmasının növbəti mərhələsi başlanmışdır.

1948-1953-cü illər deportasiyasından sonra da erməni millətçiləri öz əsassız ərazi iddialarından əl çəkməmiş, 1963-cü ildə Sov.İKP MK-nın birinci katibi Nikita Xruşşova DQMV məsələsinin həll olunmasını qarşıya qoyan etiraz məktubu göndərmişlər. Həmin məktuba Azərbaycan SSR-də yaşayan 2.500-ə yaxın erməni imza atmışdır. O dövrdə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri olmuş A.Mikoyan “erməni məsələsi”ni SSRİ məkanında davamlı şəkildə gündəmdə saxlamağa çalışmış, 1964-cü ilin əvvəllərində Krımın Ukraynaya birləşdirilməsi faktını Nikita Xruşşova nümunə göstərərək, DQMV-ni Ermənistana birləşdirmək təklifi ilə çıxış etmişdir. Bu məsələdə Nikita Xruşşovun mövqeyi qəti olmuş və bildirmişdir: “Bir gün ərzində DQMV ermənilərinin Ermənistana köçürülməsi üçün 12 min hərbi yük maşını verməyə hazıram”.

Lakin ermənilər sakitləşməmiş və 1964-cü ilin payızında SSRİ-də baş verən siyasi olaylardan istifadə etməyə çalışmışlar. Nikita Xruşşovun istefasından sonra 1966-cı ilin avqustunda Sov.İKP MK-nın Baş katibi L.Brejnevə 2000 erməninin imzası ilə məktub göndərilmişdir. Millətçilik ruhunda yazılmış bu məktubda DQMV-nin Ermənistanın SSR-dən süni şəkildə ayrılmasının məqsədəuyğun olmadığından bəhs edilirdi.

Uzun illər məsul vəzifələrdə çalışan Heydər Əliyev erməni separatçılarının məkrli siyasətini diqqətlə izləmiş, erməniliyin cinayətkar təbiətini üzə çıxarıb ifşa etmişdir. 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçildikdən sonra da ulu öndər bütün gücünü erməni separatçılarına qarşı yönəltmişdir.

Sənədlər göstərir ki, XX əsrin 60-70-ci illərində erməni separatçıları təkcə DQMV-də deyil, Azərbaycan SSR-in digər rayonlarında da millətçilik əhval-ruhiyyəsini alovlandırmışlar. Belə ki, 1948-1953-cü illərdə A.Mikoyanın təşəbbüsü ilə Daşkəsən rayonuna (1956-cı ilə qədər Dəstəfur rayonu-red.) yüzlərlə erməni ailəsi köçürülmüşdür. Daşnak ideologiyası ilə beyinləri doldurulmuş həmin ermənilər öz millətçi fikirlərini gizlətmir, 1969-cu il yayının sonunda Daşkəsən rayonunun Bayan kəndində Böyük Vətən müharibəsi əsgərlərinin xatirəsinə ucaldılmış abidənin üzərinə “Daşnaksutyun” partiyasının rəmzi olan qartal işarəsini qoyurlar. Sovet cəmiyyətində daşnak ideologiyasına və onun atributlarına yer olmadığından erməni millətçiliyinin təcəssümü olan bu abidə sökülür. Bayan kəndində məskunlaşmış ermənilər abidənin sökülməsinə qarşı etirazlarını bildirib plakatlarla çıxış edir, erməni xalqının xatirəsinin təhqir olunduğunu bəyan edirlər. Heydər Əliyev bu hadisəyə dərhal reaksiya verir. Onun göstərişi ilə Azərbaycan KP MK bürosunun iclası keçirilir və Ali Sovet Rəyasət Heyətinin sədri M.İskəndərovun başçılığı ilə Daşkəsən rayonuna komissiya göndərilir. Vəziyyəti öyrənən komissiya Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə təqdim etdiyi 26 avqust 1969-cu il tarixli arayışda göstərir ki, Bayan kəndinin millətçi əhval-ruhiyyəli ermənilərə bildirilmişdir ki, sovet cəmiyyətində “daşnak atributları qəbuledilməzdir və bərpası qeyri-mümkündür”. Beləliklə, ümummilli liderin həyata keçirdiyi tədbirlər nəticəsində erməni təxribatı dayandırılır.

Ermənistan SSR rəhbərliyinin sıralarında həmişə millətçi əhval-ruhiyyə hökm sürmüşdür. 1972-ci ildə Ermənistan SSR rəhbərliyinin dəstəyi ilə erməni ziyalılarının nümayəndələri Sov.İKP MK-nın Baş katibi L.Brejnevə məktub göndərib, DQMV məsələsini yenidən qaldırırlar. Bu müraciət DQMV-nin yerli rəhbərliyi – Azərbaycan Kommunist Partiyası Dağlıq Qarabağ Vilayət komitəsinin birinci katibi Qurqen Melkumyan (1962-1973), DQMV Xalq Deputatları vilayət Sovetinin sədri Muşeq Ohancanyan (1962-1974) və vilayətin ideologiya üzrə katibi N.Arutyunyan tərəfindən gizlicə dəstəklənirdi.

Ümummilli lider Heydər Əliyev DQMV-də erməni separatizminin qarşısının alınması üçün prioritet vəzifə olaraq kadr dəyişikliyinin aparılmasının zəruriliyini görürdü. 1973-cü il oktyabrın 12-də Azərbaycan Kommunist Partiyası Dağlıq Qarabağ vilayət komitəsinin keçirilən plenumun qərarına əsasən Qurgen Melkumyan Azərbaycan Kommunist Partiyası Dağlıq Qarabağ Vilayət Komitəsinin birinci katibi vəzifəsindən və Dağlıq Qarabağ Vilayət Komitəsinin büro üzvlüyündən azad edilir. 1974-cü il noyabrın 27-də ümummilli lider Heydər Əliyev Azərbaycan KP Dağlıq Qarabağ Vilayət Komitəsinin ikinci katibi N.Volodinin “ona həvalə edilmiş iş sahəsinə rəhbərliyinin zəifləməsi ilə əlaqədar olaraq” tutduğu vəzifədən azad edilməsi təklifi ilə Sov.İKP MK-ya müraciət etmiş və bu vəzifəyə “bacarıqlı təşkilatçı, vicdanlı, prinsipial işçi” kimi tanınan V.A.Boqoslovskini tövsiyə etmişdi.

Qeyd etmək lazımdır ki, XX əsrin 60-70-ci illərində erməni separatizminin təzahürü vilayətin mərkəzi Xankəndidə (Stepanakertdə) də açıq-aydın özünü büruzə vermişdi. Belə ki, 1967-ci ilin iyulunda ermənilər Xankəndinin mərkəzində azərbaycanlı müəllim Ərşad Məmmədovla birlikdə üç nəfəri vəhşicəsinə yandırmışdılar. Həmin vaxt Azərbaycan DTK-sının sədri olan Heydər Əliyev iki həftə Xankəndidə qalaraq əsl cinayətkarların aşkar edilərək layiqli cəzalarına çatdırılmasına nail olmuşdu.

1971-ci ildə erməni millətçiləri Xankəndidə yerləşən “Qarabağ” mehmanxanası qarşısında qumbara partlatmışdılar. Yaranmış vəziyyətdə Heydər Əliyev erməniliyin cinayətkar aktlarının qarşısını almaq məqsədilə separarçıların yuvası olan Stepanakert rayonundan millətçi ermənilərin dağıdılmasının vacibliyini prioritet vəzifə olaraq qarşıya qoyur. Onun tapşırığı ilə 1977-ci ildən etibarən Muxtar Vilayətdə yeni inzibati-ərazi bölgüsü həyata keçirilir. 1978-ci ildə Stepanakert rayonu Əsgəran rayonu adlandırılır və Əsgəran yeni yaranmış rayonun mərkəzinə çevrilir, rayonda azərbaycanlıların xüsusi çəkisi artırılır.

Məlumdur ki, Azərbaycan çoxmillətli və polikonfessiyalı ölkədir və ta qədimdən multikultural mühitə malik olmuşdur. Lakin XIX əsrin birinci otuzilliyində Araz çayının sol sahilində yerləşən Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülmüş ermənilər Azərbaycanın multikultural mühitinə uyğunlaşa bilməmiş və separatçılıqdan imtina etməmişdilər. Erməni separatizminə növbəti zərbə Azərbaycan Kommunist Partiyası Dağlıq Qarabağ Vilayət Komitəsinin 1975-ci il 21 mart tarixli plenumunda vuruldu. Plenumda Dağlıq Qarabağ Vilayət Komitəsinin keçmiş büro üzvlərinin qeyri-prinsipiallığı, millətçi ünsürlərin təhlükəliliyinə etinasızlıqla yanaşıldığı, tədbirlərin yarımçıq görüldüyü göstərilmişdir. Bu plenumda konkret adlar çəkilmiş, DQMV Yazıçılar Birliyinin sədri Baqrat Ulubabyanın, şair Boqdan Canyanın, DQMV mədəniyyət idarəsinin rəisi Jan Andriyanın, Vilayət Diyarşünaslıq muzeyinin müdiri Şagen Mkrtçyan və başqalarının siyasi sabitliyi pozmağa çalışdıqları bildirilmişdir. Qeyd etmək lazımdır ki, DQMV mədəniyyət idarəsinin rəisi Jan Andriyan Azərbaycan Kommunist Partiyası Dağlıq Qarabağ Vilayət Komitəsinin 12 sentyabr 1974-cü il tarixli iclasının qərarı ilə millətçi mövqedən çıxış etdiyinə, 1972-ci ildə Qafanda yaranmış “Vətənpərvərlər İttifağına” qoşulduğuna görə partiya sıralarından xaric edilmişdir. Plenum Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə DQMV-nin sosial-iqtisadi inkişafı istiqamətində gördüyü işə və göstərdiyi qayğıya görə minnətdarlığını bildirmişdir.

Arxiv sənədləri göstərir ki, Ümummilli lider Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə ermənilərin separatçı hərəkətlərinin qarşısı qətiyyətlə alınmışdır. 1978-ci ilin əvvəllərində Heydər Əliyevin göstərişi ilə akademik İqrar Əliyev tərəfindən ermənilərlə bağlı geniş tarixi arayış hazırlanmış, onun əsas müddəaları AKP MK bürosunun iclasında müzakirə edilərək təsdiq edilmişdir. Lakin erməni separatizminin boz hüceyrələri qıvrılmağda davam edir, hücum anını gözləyirdi. 1979-cu ildə “Oqonyok” jurnalında (№ 34) “Biz Qarabağdanıq” adlı məqalə dərc olunmuşdu. Məqalənin nəşrindən sonra jurnalın redaktoru A.Safronov İrəvandan qatı millətçi Q.K.Ter-Akopovdan məktub alır. Q.K.Ter-Akopov məktubunda əsassız olaraq Qarabağ torpaqlarını “Ermənistanın bir hissəsi” adlandırır və DQMV-nin bütün nailiyyətlərinə böhtan atırdı. Məktubla bağlı 1980-ci il martın 28-də “Oqonyok” jurnalının baş redaktoru A.Safronov Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə müraciət etmiş və bu məsələ ilə bağlı öz “fikrini bildirməyi” xahiş etmişdir.

Heydər Əliyev “Oqonyok” jurnalının baş redaktoruna 23 iyun 1980-ci il tarixli cavabında məktub müəllifinin əsassız mülahizələr yürütdüyünü və qərəzli mövqedən çıxış etdiyini bildirmiş və vurğulamışdı ki, redaksiyaya göndərilən arayışda toplanmış faktiki materiallar “Oqonyok” jurnalının redaktoruna “məktubun müəllifinə müvafiq cavab verməyə” imkan verəcəkdir. Hazırlanmış arayışda qeyd olunmuşdu ki, 1976-1980-ci illərdə vilayətdə sənaye istehsalının həcmi 1980-ci il üçün nəzərdə tutulmuş 24 faizə qarşı 50,3 faiz artmış, əmək məhsuldarlığı isə beşilliyin sonunda müəyyən edilmiş 17,1 faizə qarşı 37,6 faiz artmışdır. Həmin arayışda DQMV-də kənd təsərrüfatının inkişafının yüksələn xətlə getdiyi bildirilmiş, 1976-1979-cu illərdə vilayətdə kənd təsərrüfatının ümumi məhsulunun orta illik həcmi plan üzrə 16,8 faiz əvəzinə 49,1 faiz təşkil etdiyi, kənd təsərrüfatında əmək məhsuldarlığının beşillikdə nəzərdə tutulmuş 15,6 faizə qarşı 42,8 faiz artdığı göstərilmişdir.

Arayışda qaz kəmərinin tikintisinin Yevlax–Stepanakert–Şuşa hissələrində başa çatması göstərilmiş və qeyd edilmişdir ki, bu layihə vilayət mərkəzinin, eyni zamanda, kurort şəhərinin qazlaşdırılması işinin aparılmasına imkan vermişdir. Vilayətdə gedən mənzil fondunun yaxşılaşdırılması da qeyd olunmuş və göstərilmişdir ki, 1970-1979-cu illər ərzində 463,1 min kvadratmetr mənzil tikilmişdir. Bu arayışda təhsildə gedən inkişafa da diqqət yetirilmiş və bildirilmişdir ki, XX əsrin 70-ci illərinin sonunda vilayətdə 193, o cümlədən 147 erməni ümumtəhsil məktəbi fəaliyyət göstərir, Stepanakert Pedaqoji İnstitutunda təhsil erməni, Azərbaycan və rus dillərində aparılır.

Yuxarıda qeyd edilənlər onu bir daha göstərir ki, ümummilli lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində 1969-1982-ci illərdə respublikada erməni separatçılarının təxribatçı, millətçi hücumlarının qarşısı alınmış, erməni millətçilərinin yalan və böhtanları tarixi həqiqətlərə əsasən təkzib edilmiş, erməni əfsanələri həqiqətlər müstəvisində “sabun köpüyü”nə çevrilmiş, çoxmillətli, çoxkonfessiyalı Azərbaycanın inkişafı üçün hər cür şərait yaradılmışdır.

**Həcər VERDİYEVA,**
**tarix üzrə elmlər doktoru**

# Sülhdən qaçan hədəfə çevrilər

## *İrəvan üzdə sülhdən dəm vurur, ortada "şou-tamaşa" düzəldir, arxada isə müharibəyə hazırlaşır*



*(əvvəli 1-ci səhifədə)*

### Humanitar şounun oyunçuları

Bu gün İrəvandan Laçın yoluna göndərilən yük maşınları ilə bağlı humanitar şounun arxasında hansı qüvvələrin dayandığının fərqindəyik. Xankəndiyə guya yardım gətirən 19 "Spayka" tırı təşkil olunmuş təxribatdan başqa bir şey deyil. Bu, həm də hayların baş nazirinin ikiüzlülüyünün növbəti əyani sübutudur. Nikol Paşinyan bir tərəfdən deyir ki, Qarabağ erməniləri düşdükləri vəziyyətdən özləri çıxmalıdırlar, digər tərəfdən isə "humanitar böhrandan əziyyət çəkənlərə yardım" göndərir. "Yeməyə çörək tapmayan" Qarabağ erməniləri üçün nəzərdə tutulan humanitar yadım karvanını isə Avropa İttifaqının bu ölkədəki mülki missiyası müşayiət edir. Onlara "diplomatik müşayiəti" isə Fransa XİN öz qərəzli bəyanatı ilə təşkil etməyə çalışır. İrqçi Makron hakimiyyətinin ermənipərəst siyasətinə həmin Aİ-nin xarici diplomatiya komitəsinin sədri Jozef Borrell "züy" tutur. Parisin rejissorluq etdiyi bu "humanitar şou"ya gerçək çalarlar verməkdən ötrü bu ölkənin Azərbaycandakı səfiri Ann Buyona da şouda önəmli rol ayrılır. Madam Buyon Bakını "Laçın dəhlizi" ilə təhlükəsiz və sərbəst keçidi təmin etməyə borclu çıxarır. Əlbəttə, rəsmi Bakı bir "pultdan" idarə olunan, öncədən düşünülmüş ideoloji təzyiq şousunun müəlliflərinə beynəlxalq norma və prinsiplərə söykənən prinsipial və kəskin cavabını verdi. Həm də artıqlaması ilə verdi.

### Yeni müharibəni kim arzulayır?

Ermənistan baş naziri Nikol Paşinyan yenə öz ampluasındadır. İki gün əvvəl hökumətin iclasında sülhdən, bütün dünyanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımasından bəhs etdi. Üstəlik, yaxın qonşularla əlaqələri təcili surətdə normallaşdırmağın vacibliyindən ağızdolusu danışdı. O, hətta əks-təqdirdə "Ermənistanın gələcəyi yoxdur" kimi bəyanat da səsləndirdi. Əgər dediyi kimidirsə, onda Paşinyanın Bakının Qarabağ müharibəsində qələbəsini etiraf etməsi, Azərbaycanın ərazi bütövlüyü ilə bağlı bəyanatları ilə danışıqlar masasında sərgilədiyi tərs mütənasib mövqeyini nə cür başa düşək?

Dünya görür, biz də bilirik ki, Ermənistan Azərbaycan əleyhinə silahlandırılır. Rəsmi İrəvanın Bakı ilə sülh oyunbazlığının arxasında altdan-altdan silahlandığı artıq gizlədilməsi mümkün olmayan faktdır. Təsdiqlənmiş son məlumatlara görə, İrəvan İran ərazisi ilə Hindistandan silah-sursat daşıyır. "Caliber.az" bunu təsdiqləyən videogörüntü yayıb. Məlumatda silah-sursatla dolu TIR karvanının İranın Nurduz sərhəd məntəqəsindən keçdiyi qeyd edilir. Hindistanla yanaşı, İranın da Ermənistanın silahlanmasında maraqlı olduğu sirr deyil. Məğlub ölkənin müdafiə naziri Suren Papikyanın son vaxtlar səfər etdiyi ölkələrin coğrafiyası hər şeyi deyir: Fransa, Hindistan və İran. Hindistandan Ermənistana növbəti silah partiyasının göndərilməsi xarici işlər naziri Ararat Mirzoyanın Moskvada üçtərəfli görüşdən bir gün əvvəl Tehran səfərindən sonra baş tutmuşdu. Həqiqətə çevrilmiş bu faktı açıq söyləməyin məqamı yetişib. Nə qədər səy göstərsə də, yardım üçün yüz qapını döysə də, silahlanma yarışında Azərbaycanla ayaqlaşmaq üçün Ermənistan yetərli maddi, texniki və insani resurslara malik deyil və bundan sonra da olmayacaq. Bundan az əhəmiyyət kəsb etməyən ikinci amil ölkəmizin qardaş Türkiyə ilə hərbi müttəfiqliyini durmadan gücləndirməsidir. Azərbaycan Silahlı Qüvvələrinin Türkiyə (NATO) tipli orduya keçidi uğurla davam etdirilir, büdcədən hərbiyə ayrılan vəsaitin həcmi ildən-ilə artır. Son faktın özü xüsusilə İrəvana və ona hərbi təchizat baxımından yardımçı olmağa çalışan Hindistan kimi ölkələrə ciddi siqnal rolunu oynamalıdır. Azərbaycan Prezidenti İlham Əliyevin köməkçisi Hikmət Hacıyev Hindistanın ölkəmizdəki səfiri ilə iki gün əvvəlki görüşündə dövlətimizin rəsmi narazılığını onun diqqətinə çatdırıb. Prezidentin köməkçisinin "oyun bitdi" mesajı isə təkcə İrəvana deyil, onu "karvan-şou" kimi təxribatlara itələyən arxa plandakı aktorlara da ünvanlanıb.

### Siçovullar "gəmini" tərk edir

Artıq Xankəndidəki daşnak-separatçı quldur dəstəsinin sıralarına çaxnaşma düşüb. Batmaq ərəfəsində olan "gəmi"ni tərk etməyə tələsənlər peyda olub. Qondarma rejimi gözləyən real təhlükəni ilk hiss edənlərdən biri "DQR-in parlament sədri" Artur Tovmasyandır. O, sosial şəbəkədə bu gün "postundan" istefa verəcəyini açıqlayıb. Bakı ermənisi olan Tovmasyan bildirib ki, "şəxsi qərarımla siyasi məsuliyyəti öz üzərimə götürərək, "Artsax milli məclisinin sədri" vəzifəsindən istefa verirəm". Bu zaman "son nəfəsimə qədər Ermənistana və Qarabağa xidmət edəcəyəm", – deməyi də unutmayan Tovmasyan istefası ilə hansı "siyasi məsuliyyəti" boynuna götürdüyü barədə heç nə yazmayıb.

Zəfərimizlə başa çatmış Vətən müharibəsindən sonra Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqlar kontekstində Prezident İlham Əliyevin fərmanı ilə işğaldan azad olunan ərazilərdə Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları yaradıldı. Azərbaycan "Dağlıq Qarabağ" teoreminin həllini gələcəyə saxlamaq fikrində deyil. Bakının prinsipial mövqeyi ortadadır: heç kəs daxili işlərimizə qarışmasın, separatçı rejim maliyyələşdirilməsin və Qarabağ ermənilərinin reinteqrasiyasına əngəllər törədilməsin.

Maraq doğuran məsələlərdən biri də Ermənistanın Laçın yolu üzərində qurduğu "karvan-şou"ya Moskvanın hələlik reaksiya verməməsidir. Biz səbirli xalqıq, gözləyərik. Az sonra Kremlin haqqın və ədalətin yanında olacağı, yoxsa avropalılar kimi, "karvan-şou" siyasi tamaşasına baxmağa üstünlük verəcəyi bilinəcək?

İrəvan nə qədər gec deyil, faydasız və nəticəsiz soulara son verməli, seçimini etməli, üzdə sülhdən dəm vurub, arxada özünü "müharibə partiyası" cildində aparmaq taktikasından əl çəkməlidir. Çünki qoca tarix göstərir ki, sülhdən dönənin son aqibəti yaman olur.

**İmran BƏDİRXANLI,**
**"Xalq qəzeti"**

### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Bunun adı ənənəvi erməni cığallığıdır. Hərbi müstəvidə Azərbaycanla toqquşmaq onlar üçün sadəcə, xam xəyaldır. Diplomatik cəbhədə də heç nə bacarmırlar. Yeganə yolları ağlaşma qurmaq, özlərini dünyaya zavallı, yazıq kimi təqdim etməkdir. Məqsəd, guya, özlərinin əzilməsinin qarşısının alınması tələbi üzərində şou göstərməkdir. Onlar, doğrudan da, Qarabağ ermənilərinə humanitar yardım çatdırmaq istəyirlərsə, bunun yolu var. Hansı dövlət digər dövlətin ərazisinə icazəsiz yardım daşıya bilər? Bunun bir qaydası var, yoxsa hara nə istəyirəm daşıyacam, -olmaz! Zəhmət çək, müraciət elə, hansı yardımı gətirəcəyini göstər və əsaslandır. Razılıq alınandan sonra qaydalar çərçivəsində hərəkət etməlidir. Yəni, Azərbaycanın Laçın yolunda, Həkəri çayının üstündəki sərhəd məntəqəsinin qanuniliyini etiraf etməyə məcbur olacaq. Bununla İrəvanın üfürüb şişirdiyi dezinformasiya köpüyü dağılacaq.

Düşünürəm ki, Paşinyan danışıqların gedişində Azərbaycana təzyiq göstərə biləcəyini hiss edib. Qarabağdakı ermənilərə, guya, kömək etmək niyyəti ilə belə bir üsula əl atan İrəvan hər bir halda Bakıya rəsmi müraciət ünvanlamalıdır. Siyasi şou hesabına heç nəyə nail ola bilməyəcəklər. Bəli, Qərbdəki ermənipərəst dairələrin Bakıya sözlə təzyiqini görürük. Amma dövlət başçımız onların konkret cavabını verdi. Dedi ki, siz məsələnin həllinə çalışırsınız, yoxsa başağrısı istəyirsiniz? Ağrıyan baş sizin başınız olacaq. Yox, əgər dinc yolla həllinə razısınızsa, onda Azərbaycanın tələblərini qəbul edin. Onsuz da ermənilər "miatsum"u cəmiyyətə yedirə bilmədilər. Hətta, Fransa BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə qətnamə keçirməyə cəhdlər göstərib, amma alınmayıb. Əgər indi informasiya dəstəyi ilə Bakıdan hansısa güzəşti qoparacağına ümid edirsə, bu, qətiyyən mümkün deyil.

**Yeganə HACIYEVA,**
**siyasi şərhçi**



Azərbaycana diplomatik təzyiqin bir neçə səbəbi var. Birinci səbəbi Avropa İttifaqı qurumlarına qarşıda nəzərdə tutulan seçkilərdə axtarmaq lazımdır. Hazırda Aİ-də riyakar və korrupsioner siyasilər, kriminal erməni lobbisinin çirkli pullarından faydalanmaq üçün Aİ postlarına iddia edən beynəlxalq məmurlar sıraya düzülüblər. Aİ mülki missiyasının tır təxribatında rol alması da təəccüblü deyil. Çünki bu missiyanın əsas hədəfinin Ermənistanı müdafiə etmək olmadığı onun rəhbərinin Avropanın media subyektlərinə verdiyi müsahibələrdən aydın olmuşdu. Digər tərəfdən, görünən mənzərə belədir ki, Ermənistanı Aİ mülki missiyanın müşayiəti ilə Azərbaycanın sərhədindən Qarabağa "humanitar böhran" bəhanəsi altında soxulmaq istəyir. Yəni, İrəvan əksəriyyəti istefada olan fransız hərbiçilərdən ibarət Aİ-nin mülki missiyasının dəstəyi sayəsində Azərbaycanın suveren sərhədlərini pozmağa cəhd göstərir. Azərbaycan üçün nə Aİ-nin şübhəli motivlərlə tır təxribatında iştirak edən nümayəndələrinin, nə erməni lobbisinin züytutanı rolunda çıxış edən siyasətçilərin, nə də Bakıda oturub Ermənistanın vəkillik edən xarici ölkələrin səfirlərinin fikri önəmli deyil.

Laçın yolu ilə bağlı Beynəlxalq Ədalət Məhkəməsi və Avropa İnsan Haqları Məhkəməsi öz qərarını çıxarıb. Həm bu yol, həm də onun ətrafında hərəkətin tənzimləməsi Azərbaycanın daxili məsələsi və suveren hüququ sayılıb. Amma sərhəddə təşkil edilən bu "karvan şantajı", ermənilərin bu təxribatı bizə, beynəlxalq hüquqa əsasən, legitim özünü müdafiə haqqımızdan istifadə etmək presendentini yaradır. Əslində, bu, həm də region üçün yeni hədəflər formalaşdırır. İndiki vəziyyətdə isə proseslərin bu yöndə inkişafının məsuliyyəti məhz İrəvanın üzərinə düşür.

**Şair RAMALDANOV,**
**hərbi ekspert**



Bu, ermənilərin yeni təxribat üsuludur. Onlar Qarabağda yaşayan ermənilərin guya blokadada olması, Bakının humanitar yükləri ora buraxmaması ilə bağlı hay-küy salıblar. Azərbaycan həm erməni icmasına, həm də sülhməramlı qüvvələrə alternativ, rahat, logistik cəhətdən sərfəli və təhlükəsiz marşrut təklif edib. Bu təklifə Avropa Şurasının rəhbəri də müsbət yanaşıb. Amma onlar humanitar yükü Laçın yolundakı postumuzdan keçirməyə çalışırlar. Prinsip etibarı ilə bu yol dinc əhalinin üzünə açıqdır və Bakı onların təhlükəsizliyinə tam təminat verir. Sadəcə, erməni separatçılarının törətdiyi silahlı insidentlərdən, BQXK-nın qaçaqmalçılıq hərəkətindən sonra bu yolla hərəkət məhdudlaşdırılıb. Hazırda bölgəyə humanitar yükü gətirən həmin nəqliyyat şirkətinin adı Ermənistandan Azərbaycana silah-sursat daşınmasında da hallanırdı. Ona görə yüklər hərtərəfli yoxlanmalıdır. On doqquz TIR postda gözləyir, ermənilər də beynəlxalq təşkilatlara müraciətlər göndərir, Bakını humanitar böhran yaratmaqda günahlandırmağa çalışırlar. Azərbaycan bütün hallarda beynəlxalq hüquqa uyğun hərəkət edəcək. Təklif olunan alternativ yolu bağlayan, bloklayan məhz erməni separatçıları özləridir.

Sülh müqaviləsi imzalanandan sonra qüdrətli Türkiyə və güclənən Azərbaycanla əməkdaşlıqdan daha çox qazanan Ermənistan olacaq. İrəvandakı hərbi-siyasi rəhbərliyə, revanşistlərə, xunta rejiminə gəldikdə isə məhz onlar xalqı bu vəziyyətə gətiriblər. Əlbəttə, İrəvandakı Paşinyan iqtidarı, Qarabağ iqtisadi zonamızdakı separatçı rejim hakimiyyətinin ömrünü uzatmaq üçün bütün vasitələrə əl atır. Bakı isə onların siyasi, hərbi, iqtisadi təxribatlarına anındaca cavab verməyə hazırdır. Müharibə son addımdır. Bəli, sülh olmayanda silahlar danışır. Digər resurslar tükənərsə, Azərbaycan Ordusu öz sözünü deməyə hazırdır və buna qadirdir.

---

# Bir bezin iki qırağı

## *yaxud Oskanyanla Paşinyan nəyi alıb-verə bilmirlər?*

**Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyan baş nazir Nikol Paşinyanın ünvanına yeni ittihamlar səsləndirib. 44 günlük müharibənin başlanmasına görə Ermənistan hakimiyyətini ittiham edən Oskanyan Paşinyan rejiminin ölkəni yeni müharibəyə sürüklədiyini bildirib. Paşinyana xitabən "ya sus, ya istefa ver" çağırışı səsləndirən Oskanyan, Nikol hökumətinin anklavlar məsələsindəki mövqeyini də tənqid edib. Maraqlıdır, Vardan Oskanyanın Paşinyana ünvanladığı tənqidlər nə dərəcədə əsaslıdır? Onun Erənistanın nicatı kimi irəli sürdüyü ideyalar doğrudanmı ermənilərin xilasına hesablanıb?**

### Kor kora kor deməsə...



Vardan Oskanyanın hazırkı iqtidara yönəlik tənqidlərinin kökündə əsasən Ermənistanın mənafeyinə yetərincə müdafiə edə bilməmək ittihamı dayanır. Oskanyan iddia edir ki, Paşinyan hökuməti rəsmi Bakı ilə münasibətdə həddən artıq təslimçi mövqeyində dayanır və çox böyük güzəştlərə gedir. Keçmiş xarici işlər nazirinin fikrincə, Paşinyan rejiminin mövcud siyasəti Azərbaycanla yeni qarşıdurmalar üçün ciddi əsaslar yaradır.

Oskanyanın özünü erməni xalqının xilaskarı kimi təqdim etməsinə baxmayaraq, mövcud faktların təhlili bu təqdimatın cəfəngiyyatdan başqa bir şey olmadığını göstərir. Hər şeydən öncə qeyd edək ki, Vardan Oskanyan Ermənistanın xarici işlər naziri olduğu 1998-2008-ci illərdə Azərbaycan–Ermənistan münasibətlərinin yaxşılaşmasına, Qarabağ probleminin sülh yolu ilə həllinə iynə ucu boyda töhfə verməyib. Əksinə, həmin dövrdə Azərbaycan–Ermənistan münasibətləri gərgin olaraq qalıb, hər iki dövlət problemin hərbi yolla həllinə köklənib. Hansı ki, bu siyasət sonda 44 günlük Vətən müharibəsinin başlanmasına gətirib çıxardı ki, bu da Ermənistan ordusunun darmadağın olması ilə nəticələndi.

İkincisi, Vardan Oskanyan Bakı ilə münasibətlərdə "sərt xətt" tərəfdarıdır. Halbuki, qalib Azərbaycanla təhdid dili ilə danışmağın mümkünsüzlüyü göz önündədir. Belə olan halda Oskanyanın qondarma "xilas yolları"nı göstərir. Oskanyanın Paşinyana olan bu münasibəti istər-istəməz "kor kora lağ eləməsə, bağrı çatlar" məsəlini yada salır. Görünür, zamanında heç bir uğura imza ata bilməyən Oskanyana bu gün döyüş çox asan görünür.

### İki səriştəsizin bir sifəti:

Paşinyanı Bakı ilə zor dilində danışmağa təhrik etməsi siyasi avantüradan başqa bir şey deyil. Bu, onu göstərir ki, Oskanyan nəinki Paşinyandan mümkün olmayanı istəyir, həm də onu yeni qarşıdurma və məğlubiyyətə doğru çəkir. Başqa sözlə desək, vaxtilə özü Azərbaycan–Ermənistan münasibətlərinin normallaşmasına heç bir fayda verməyən Oskanyan Paşinyanı eyni bacarıqsızlığa görə ittiham edir və ona

### Riyakarlıq!

Oskanyan və Paşinyan bir-birini qəbul etməyən iki fərqli düşərgənin təmsilçiləri olsalar da, əslində, onların hər ikisini birləşdirən bir ortaq amil mövcuddur. Bu, riyakarlıqdır. Oskanyan xarici işlər naziri olan zaman Azərbaycana münasibətdə nə qədər qeyri-səmimi idisə, Paşinyan da dövlətimizə, ümumilikdə, sülh prosesinə münasibətdə bir o qədər qeyri-səmimidir. Vaxtilə Oskanyan sülh danışıqları ilə bağlı necə imitasiya edirdisə, bu gün Paşinyan eyni imitasiyanı təkrarlamaqdadır. Bu gün özünün erməni xalqının xilaskarı adlandıran Oskanyan kimi, Paşinyan da zamanında özünü Ermənistanın xilaskarı kimi təqdim etmiş, nəticə etibarilə erməni toplumunu fəlakətlə üz-üzə qoymuşdur. Bir sözlə, həm Oskanyan, həm də Paşinyan erməni toplumunu, eləcə də beynəlxalq ictimaiyyəti aldatmaqdan çəkinməmiş, öz siyasi ambisiyaları naminə toplumun hiss və duyğularını istismar etmişlər. Məhz bunun nəticəsidir ki, bu gün erməni cəmiyyəti həm Oskanyanın, həm də Paşinyanın vədlərini eyni dərəcədə etibarsız hesab edir. Bu gün sadə bir vətəndaşın sözü erməni toplumu üçün bu iki siyasətçinin sözündən daha dəyərli və daha etibarlıdır. Odur ki, Oskanyanın Paşinyanı, Paşinyanın isə Oskanyanı "xərcləmək" hesabına cəmiyyətdə inam qazanmaq cəhdləri səmərəsizdir. Çünki cəmiyyətin hər iki siyasətçiyə olan inamsız münasibəti göstərir ki, əslində, Oskanyan da, Paşinyan da çoxdan "xərclənib" və onları yenidən bir tam kimi görmək heç kimə nəsib olmayacaq.

**Seymur ƏLİYEV**

# Azərbaycan Transxəzər qaz kəmərinin reallaşmasını fəal dəstəkləyir

## Prezident İlham Əliyevin bu məsələdə mövqeyi aydın və qətidir

**Son günlər təbii qazın Mərkəzi Asiyadan Azərbaycan ərazisilə Türkiyəyə nəqlini nəzərdə tutan Transxəzər qaz kəməri ideyası yenidən müzakirə obyektinə çevrilib. Azərbaycan dövlətinin mövqeyi isə bu məsələdə dəyişməz olaraq qalır. İyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev məsələ ilə bağlı bir sıra məqamlara aydınlıq gətirib.**




Dövlətimizin başçısı italiyalı jurnalistin Türkmənistan qazının Azərbaycan üzərindən nəql imkanları ilə bağlı sualını cavablandırarkən bildirib ki, bu, ölkəmizin təşəbbüsü ilə başlayacaq bir layihə deyil. Azərbaycanın təşəbbüskarı olduğu layihələrin ölkələrin resurslarına əsaslandığını vurğulayan Prezident İlham Əliyev deyib: "Biz Cənub Qaz Dəhlizi layihənin təşəbbüskarıyıq, əsas səhmdarlarından biriyik və əslində, biz o layihənin bütün dövlətlərarası, hökumətlərarası sazişlərinin də əlaqələndiricisi kimi çıxış edirik. Bildiyiniz kimi, bu layihə müvəffəqiyyətlə icra olunmuşdur və artıq iki ildir ki, Azərbaycan Avropaya əhəmiyyətli qaz tədarükçüsünə çevrilmişdir və Avropa Komissiyasının Prezidenti Azərbaycanı etibarlı tərəfdaş adlandırır. Avropa İttifaqının enerji komissarı Azərbaycanı Panavropa qaz tədarükçüsü adlandırır. Bizim, sözsüz ki, Avropaya qaz tədarükümüzün coğrafiyası genişlənir və ümidvaram ki, ilin sonuna qədər əlavə iki Avropa ölkəsi Azərbaycan qazının alıcısına çevriləcək".

Transxəzər layihəsinə gəldikdə isə, dövlətimizin başçısı bildirib ki, bu layihə bir ideya olaraq Türkmənistanın qaz ehtiyatlarına əsaslanır. Bu səbəbdən də həmin təşəbbüsün irəli sürülməsinin və yaxud ona sərmayə yatırılmasının Azərbaycandan asılı olmadığını diqqətə çatdıran Prezident İlham Əliyev deyib ki, biz mövcud infrastrukturumuzu təklif edə bilərik və yaxud müəyyən ərazi təklif edə bilərik ki, yeni infrastruktur inşa edilsin.

Azərbaycan Prezidenti Xəzər dənizinin Şərq sahillərindən əlavə qaz ehtiyatlarının ölkəmizin ərazisindən Türkiyə və Avropa bazarlarına çatdırılması üçün Transxəzər sualtı qaz boru kəmərinin çəkilişinin, eləcə də Bakıdan Avropa istiqamətində Cənub Qaz Dəhlizi kimi yeni infrastrukturun yaradılmasının vacibliyini önə çəkib. Bununla belə, bu mühüm layihəni kim tərəfindən maliyyələşdiriləcəyi sual olaraq qalır.

Dövlətimizin başçısının Şuşadan səsləndirdiyi mesaj bir sıra mətləblərə aydınlıq gətirir. Həmin suala cavab tapılana qədər layihənin icrasının və yaxud da bu məsələ haqqında düşünməyin bir o qədər real olmayacağını vurğulayan Prezident İlham Əliyev hazırda Avropa banklarının mədən yanacağı ilə əlaqədar layihələri maliyyələşdirmədiklərini xatırladaraq bildirib ki, Transxəzər layihəsi üçün ciddi vəsait cəlb etmək çətin olacaq: "Lakin kimsə Transxəzər boru kəmərini inşa etmək istəsə, biz şad olarıq. Nəticədə, bizə əlavə tranzit rüsumları ödəniləcək və yeni əməkdaşlıq imkanları yaranacaq".

Qeyd edək ki, təbii qazın Azərbaycan ərazisi ilə Türkiyəyə nəqlini nəzərdə tutan Transxəzər qaz kəməri ideyası ilk dəfə 1997-ci ildə irəli sürülüb. Bundan da məqsəd Xəzərin Azərbaycan və Türkmənistan sahillərini birləşdirəcək həmin kəmərlə Türkmənistan qazının Türkiyəyə nəqlindən ibarət olub. Həmin vaxt Türkiyənin "Botaş" şirkəti ilə Türkmənistanın "Türkmənqaz" Dövlət Konserni arasında illik 30 milyard kubmetr olmaqla qazın alqı-satqısına dair kommersiya sazişi imzalanıb.

Sözügedən sazişə görə, "Botaş" Türkmənistan qazını tam həcmdə almağı və bunun 10 milyard kubmetrini Türkiyənin daxili bazarında satmağı planlaşdırırdı. Digər həcmləri isə Avropaya ixrac etməklə bu infrastrukturun yaradılması və özünün xərclərini kommersiya baxımından qarşılıqlı faydalı bir şəraitdə çıxarmalı idi. Bununla bağlı 30 milyard kubmetr ötürmə qabiliyyəti olan boru kəmərinin Türkmənistandan Bakı yaxınlığına, Səngəçal terminalına çəkilməsi, Azərbaycan və Gürcüstan ərazisindən keçməklə Türkiyə ərazisinə daxil olması nəzərdə tutulurdu.

Daha sonra layihənin müzakirəsi və tranzit ölkələrlə bu prosesin tənzimlənməsi ilə bağlı danışıqlara başlanılıb. Lakin uzun illər keçməsinə baxmayaraq, Transxəzər qaz kəməri layihəsi, hələ ki, müzakirə mərhələsindən o yana keçə bilmir.

***Mirbağır YAQUBZADƏ,***
***Xalq qəzeti"***

### Ekspert rəyi

**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa mediaforumunda Transxəzər qaz kəməri ilə bağlı dediklərinə Türkmənistan Xarici İşlər Nazirliyi münasibət bildirib. Açıqlamanın sonunda layihənin istehsalçı, tranzit ölkələr və istehlakçıların maraqlarına xidmət etdiyi vurğulanır. Bununla belə, türkmənlər layihənin tarixi kimi 2007-ci ili – Berdımuhemmedovun hakimiyyətə gəldiyi ili götürürlər. Halbuki onun əsası 1997-ci ildə Türkiyə ilə imzalanan müqavilə ilə qoyulub.

Əgər belə səmərəli, maneəsiz layihədirsə, 20 ildən yuxarıdır niyə həyata keçirilmir? Xatırladaq ki, "Nabukko" layihəsi 10 il ərzində müzakirə edilsə də, sonda uğursuzluğa düçar oldu və 2013-cü ildən tarixə qovuşdu. Çünki o, istehlakçıya ucuz qaz vəd etmirdi. Özü də Cənub Qaz Dəhlizi Avropanın cənubuna – İtaliyaya gedirsə, Nabukkonun Avropa qaz bazarının mərkəzinə – Avstriyaya çəkiləcəyi nəzərdə tutlurdu. Bununla yanaşı, Cənub Qaz Dəhlizinin uzunluğu 3 min kilometrdirsə, Nabukko kəməri 4 min kilometr olacaqdı. Bu kimi layihələrdə isə əsas diqqət onunla nəql ediləcək qazın iqtisadi baxımdan səmərəliliyinə yönəldilir.

Rəsmi Aşqabadın qənaətincə, Transxəzər qaz kəmərinin reallaşması Azərbaycanla Türkmənistan arasında Xəzərin dibinin bölünməsi məsələsinə bağlıdır. Yəni, Aşqabad yenə də Xəzərin dibinin sektoral olaraq bölünməsini, ümumən, qəbul etsə də, amma özünə sərf edən "ayrıca məqamlar"ın (Abşeron yarımadası, Çilov adası kimi coğrafi subyektlərin orta xəttə təsiri) nəzərə alınmamasında Bakı ilə olan əvvəlki fikir ayrılıqlarını yenidən gündəmə gətirir.

Fikrimcə, 2021-ci ilin yanvarında Türkmənistanla "Dostluq" yatağının birgə işlənməsinə dair imzalanmış sazişin indiyə qədər kağız üzərində qalması da məhz rəsmi Aşqabadın tez-tez dəyişən mövqeyinin nəticəsidir. İndi sual olunur: Bəs Aşqabad nədən dövlət səviyyəsində belə bir açıqlama ilə çıxış edir? Düşünürəm ki, Türkmənistan, ilk növbədə, özünün qaz resurslarının çoxşaxəli şəkildə beynəlxalq bazarlara çıxarılmasında maraqlı olmasını gündəmdə saxlamağa çalışır.

Eyni zamanda, o taylı qonşumuz bu ideyanın gerçəkləşdirilməsi yönümündə əsas baryerin Xəzərin dibinin bölüşdürülməsinə dair Azərbaycanla olan fikir ayrılığını qabardır. Ən əsası, Türkmənistan özünün qaz ehtiyatlarının indiyə qədər Avropadakı istehlakçılara çatdırılmaması üçün bütün məsuliyyəti rəsmi Brüsselin üstünə yıxmağa səy göstərir. Bu isə Kremlin maraqları ilə tam üst-üstə düşür.



# Qeyri-neft sektoru ümumi iqtisadi inkişafı sürətləndirib

## Bu sahədə artım 6 ayda 6,5 faiz olub

**Azərbaycanda ümumi iqtisadi artımın əsas hissəsinin neft strategiyasının uğurlu nəticələri hesabına təmin olunmasına baxmayaraq son illər qeyri-neft sektorunda da xüsusi fəallıq nəzərə çarpır. Bu da Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin məntiqi nəticəsidir.**

Fikrimizin təsdiqi üçün qeyd edək ki, 2010-cu ildə respublikamızın qeyri-neft sektorunda 18,4 milyon manatlıq məhsul istehsal olunduğu halda, çoxsaylı mənfi şokların təsiri ilə mübarizə aparan qlobal iqtisadiyyatın həssas olduğu indiki dövrdə qeyri-neft-qaz sənayesində artım neft–qaz sənayesindəki artımı üstələyib. Mövcud sahədə əlavə dəyər 2023-cü ilin birinci yarımilliyində 6,5 faiz artıb. Ümumi olaraq isə qeyri-neft sektorunda 3 faizdən çox artım müşahidə olunub.

Bu uğurlu göstəricilərin əldə edilməsində dövlətimizin başçısının rəhbərliyi ilə ardıcıl və sistemli surətdə həyata keçirilən sənayenin inkişafına dair Dövlət Proqramı da əhəmiyyətli rol oynayıb. Bu proqram şübhəsiz ki, ənənəvi sənaye sahələri ilə yanaşı, Azərbaycan iqtisadiyyatı üçün yeni olan kosmik, müdafiə, gəmiqayırma, alternativ enerji və digər sahələrin, həmçinin müasir istehsal infrastrukturuna malik sənaye zonalarının inkişafını sürətləndirib. Belə vəziyyət ölkənin ixrac qabiliyyətinin güclənməsinə, idxalı əvəz edən məhsulların istehsalının artırılmasına da əhəmiyyətli təsir göstərib.

Qeyri-neft sektorunun inkişafına sənaye zonalarının müsbət təsirindən danışarkən, xatırladaq ki, indiyədək bu sahədə 10,23 milyard manat dəyərində məhsul satışı həyata keçirilib və onun 3,35 milyard manatlıq hissəsi ixrac edilib. Cari ilin birinci yarısında isə 1,4 milyard manat məhsul satılıb ki, bunun da 33,6 faizi ixracın payına düşüb. Bugünədək sənaye zonalarında ümumi investisiya dəyəri 7,18 milyard manat olmaqla 131 sahibkarlıq subyektinə rezident statusu verilib və onlardan 68-i və yaxud 51,9 faizi istehsal fəaliyyətinə başlayıb. Sənaye zonalarına 6,56 milyard manat investisiya yatırılıb və 10 min 600-dən çox daimi iş yeri yaradılıb.

Onu da qeyd edək ki, hazırda sənaye zonaları və aqroparklarda sahibkarlar üçün stimullaşdırıcı biznes və investisiya mühiti yaratmaq üçün dövlət tərəfindən müxtəlif dəstək tədbirləri mövcuddur. Bununla yanaşı, sahibkarlara vergi və gömrük güzəştləri, eləcə də hazır infrastrukturla təminat təklif edilir.

Sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunurlar. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında da bərpa prosesi indiyədək sənayeləşmə siyasəti ilə paralel aparılıb. "Ağdam" və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında ümumilikdə 20-ə yaxın sənaye müəssisəsi qeydiyyata alınıb. Düşməndən təmizlənən ərazilərdə kənd təsərrüfatının inkişaf məqsədləri üçün 940 fermer təsərrüfatının yaradılması nəzərdə tutulub.

Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının hazırda 3 rezidenti və 1 qeyri-rezidenti var. İnvestorlar tərəfindən bu zonaya 21 milyon manatdan çox investisiyanın yatırılması, 270-dən artıq iş yerinin yaradılması planlaşdırılıb. Hazırda "Araz Vadisi İqtisadi Zonası"nda rezidentlər üçün infrastrukturun qurulması istiqamətində işlər aparılır. Digər sənaye parklarında olduğu kimi, burada da sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırılır.

Ağdam Sənaye Parkının yeni qeydiyyata alınmış rezidentlərinin ümumi investisiya həcmi isə 36 milyon manata yaxın olan layihələrinin reallaşması nəticəsində 130-dan çox daimi iş yerinin yaradılması planlaşdırılıb. Burada rezidentlik statusu verilən sahibkarlıq subyektlərinin sayı 14-ə çatdırılıb.

Hazırda iqtisadi zonalarda ixrac fəaliyyətinə xüsusi diqqət yetirilir. Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan "SOCAR Karbamid" zavodu tərəfindən istehsal olunan məhsulların "Made in Azerbaijan" brendi ilə dünyanın 23 ölkəsinə (Brazilya, Hindistan, Türkiyə, Rusiya, İsrail, Polşa, Yunanıstan, Rumıniya, Bolqarıstan, Albaniya, İtaliya, Gürcüstan və s.) ixrac edilməsi bunun parlaq nümunəsidir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın iyul sayına əsasən, cari ilin yanvar-iyun ayları ərzində Azərbaycanın ümumi ixracı 18 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac isə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 20,6 faiz artaraq 1,8 milyard ABŞ dolları təşkil edib. Hesabat dövrü ərzində yeyinti məhsulları üzrə ixrac 459,9 milyon ABŞ dollarına bərabər olub.

Bu ilin ötən 6 ayında aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 13,1 faiz artaraq 478,2 milyon ABŞ dolları təşkil edib. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 54,1 faiz artaraq 109,2 milyon ABŞ dolları təşkil edib.

Hesabat dövründə ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (314,4 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pomidor (tomat) (120,7 milyon ABŞ dolları) ikinci, pambıq mahlıcı (68,7 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

"İxrac icmalı"nda göstərilib ki, 2023-cü ilin iyul ayında "Bir pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft ixracının dəyəri 22,6 milyon ABŞ dollarına çatıb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi

**Vəkil HÜSEYNOV,**
**iqtisadçı-ekspert**



Qeyri–neft sənayesinin inkişafı ölkənin karbohidrogen daşıyıcılarının hasilat və ixracından əldə edilən gəlirlərdən, həmçinin daxili istehsalın və istehlak bazarının idxaldan asılılığını azaldır, ixracın şaxələnməsinə xidmət edir.

Son 20 il ərzində respublikada yüzlərlə müasir sənaye müəssisəsinin, yeni istehsal sahələrinin, müxtəlif bölgələrdə sənaye parklarının yaradılması isə həm iş yerlərinin açılmasını, həm də qeyri–neft sənayesinin inkişafını sürətləndirib və daxili tələbatın ödənilməsində yerli məhsulların payının əhəmiyyətli dərəcədə artmasına, ixrac imkanlarının genişlənməsinə gətirib çıxarıb.

Azərbaycanda lazım olan bütün istehsalat sahələrinin yaradılması, yeni investisiyalar cəlb edilməsi üçün gözəl biznes mühiti, siyasi sabitlik, xalq-iqtidar birliyi, təhlükəsizlik təmin edilib, əlverişli coğrafi yerləşmə, infrastruktur, hazırlıqlı peşəkar kadrlar, ixrac bazarları, qonşu ölkələrlə yaxşı işgüzar münasibətlər var.

Sənaye zonaları və aqroparkların təşəkkülü də belə demək mümkünsə, bax, bu cür əlverişli şəraitin məhsuludur. Bu müəssisələrdə sahibkarlar üçün stimullaşdırıcı biznes və investisiya mühiti yaratmaq üçün dövlət tərəfindən müxtəlif dəstək tədbirləri mövcuddur. Belə ki, sahibkarlara təşkilati dəstəklə yanaşı, vergi və gömrük güzəştləri, eləcə də hazır infrastrukturla təminat təklif edilir.

Həmin parklarda rezidentlər üçün dövlət vəsaiti hesabına müasir və geniş infrastruktur təchizatı "birbaşa qoşulma" ("Plug&Play") prinsipi əsasında gerçəkləşdirilir. Dövlət vəsaiti hesabına yaradılmış müasir infrastruktur sahibkarlara öz vəsaitlərini birbaşa layihənin icrasına yönəltmələrinə imkan yaradır. Sənaye məhəllələrində tam infrastrukturla təmin edilən torpaq sahələri, həm də hazır tiklilər sahibkarlara uzunmüddətli icarəyə verilir.

Sahibkarlığın İnkişafı Fondu tərəfindən hər il bu qurumun müşahidə şurasının qərarı ilə müəyyənləşdirilən prioritet istiqamətlər üzrə güzəştli kreditlər müvəkkil kredit təşkilatları (bank, bank olmayan kredit təşkilatı, kredit ittifaqı və s.) vasitəsilə verilir.

## Ölkəmizdə inflyasiyanın azalacağı proqnozlaşdırılır

***2023-cü ilin yekunlarına görə, Azərbaycanda inflyasiyanın 6-7 faizədək azalacağı gözlənilir.***



Bunu Mərkəzi Bankın idarə heyətinin sədri Taleh Kazımov uçot dərəcəsi parametrlərində dəyişikliklərə həsr olunmuş mətbuat konfransında deyib. Onun sözlərinə görə, 2024-2025-ci illərdə 4-6 faiz baza göstəricisinin əldə ediləcəyi gözlənilir.

Xatırladaq ki, bu ilin iyun ayında ölkəmizdə inflyasiya əvvəlki ayla müqayisədə 0,9 faiz (10,6 faiz), illik ərzaq inflyasiyası isə 11,5 faizədək azalıb.

## Dəniz nəqliyyatı ilə yükdaşıma 4 dəfə artıb

***Bu ilin 6 ayında Azərbaycanda dəniz nəqliyyatı ilə 930 milyon dollar dəyərində 1,4 milyon ton yük daşınıb. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 94,1 faiz və 4 dəfə çoxdur.***



Həmin dövrdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə 3,5 milyon tondan çox yük aşırılıb ki, 2022-ci illə müqayisədə 12 faizlik artım deməkdir. I yarımildə dəniz nəqliyyatı ilə ixrac olunan yüklərin dəyəri 83 milyon 45 min dollara bərabər olub, 847 milyon dollarlıq yük isə idxal olunub. Son bir ildə ixrac olunan yüklərin həcmi 3,2 dəfə artıb.

***"Xalq qəzeti"***

# Fransa aranı qarışdırmaqdan əl çəkmir

## Paris bölgədə sülhün əldə olunmaması üçün bütün səylərini səfərbər edib

*(əvvəli 1-ci səhifədə)*

Onların bu çağırışları əsassız olduğundan ikrah doğurur. Əvvəla, Azərbaycanla Ermənistan arasında hansısa atəşkəs sazişi imzalanmayıb. Azərbaycanın apardığı 44 günlük Vətən müharibəsində ciddi itkilərə məruz qalan, sarsıdıcı məğlubiyyətə uğrayan İrəvan 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə təslimolma sənədinə imza atıb. Prezident İlham Əliyevin noyabrın 10-da gecə xalqa müraciətində dediyi kimi, bu gün ölkəmiz üçün tarixi bir gündür. Həmin gün Ermənistanla Azərbaycan arasında 30 ildən artıq davam edən münaqişəyə son qoyulub. Dövlət başçımız qeyd edib ki, imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. İndi Fransa XİN-in həmin bəyanata atəşkəs sazişi deməsi, ən azı, faktları təhrif etməkdir. Digər tərəfdən, Fransa XİN-in bəyanatından müəyyən nəticələr çıxır. Belə anlaşılır ki, Paris üçtərəfli bəyanatı məsələnin yekun aktı kimi qiymətləndirmir, Ermənistanla Azərbaycan arasında silahlı qarşıdurma mərhələsinin başa çatdığını qəbul etmir. Onların fikrincə, hələlik, yalnız atəşkəs sazişi imzalanıb. Bu kontekstdə Fransanın Ermənistana son vaxtlar silah-sursat tədarük etməsi, İrəvandakı Fransa səfirliyində müdafiə missiyasının yaradılması maraq doğurur.



Fransa XİN Azərbaycanın hansısa öhdəlik götürdüyünü iddia edir. Ancaq, nədənsə, əsl öhdəliyi Ermənistanın öz üzərinə götürdüyünü unudur. Üçtərəfli bəyanatın müddəaları, xüsusilə, onun dördüncü bəndi Ermənistan tərəfindən kobudcasına pozulur. Orada açıq-aydın yazılıb ki, Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Ermənistan ordusunun qalıqları isə hələ də Azərbaycan ərazilərindən tam olaraq çıxarılmayıb. Məlumatlara əsasən, Qarabağ bölgəsində, təxminən, 10 minlik şəxsi heyət qalmaqdadır. Qanunsuz erməni silahlı dəstələri yeni postlar və mühəndis-istehkam qurğuları yaradır, ərazilərimizi müharibədən sonra Ermənistanda istehsal edilmiş minalarla çirkləndirir, Azərbaycan Ordusunun mövqelərini atəşə tutur. Faktiki olaraq yeni "təmas xətti" qurmağa çalışırlar. Bundan başqa, Ermənistan üçtərəfli bəyanatın bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsini nəzərdə tutan 9-cu bəndini indiyədək yerinə yetirməkdən imtina edir. Orada da aydın şəkildə qeyd olunub ki, Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. İrəvan bu zəmanəti vermək öhdəliyini icra etmir. Fransa XİN-in diqqətinə çatdırmaq istərdik ki, üçtərəfli bəyanata zidd olaraq Naxçıvana maneəsiz keçidin təmin olunmasından imtina edilməsi Bakının yox, İrəvanın öhdəliklərini heçə saydığını nümayiş etdirir.

### Ekspert rəyi



**Zaur MƏMMƏDOV, politoloq**

– Fransa XİN-in bəyanatı bizim üçün elə bir əhəmiyyət daşımır. Nədənsə, Fransa XİN Azərbaycan torpaqlarının işğal altında olduğu dövrdə bu cür bəyanatlarla çıxış etmirdi. İndi isə Fransa tərəfindən çox ciddi narahatlıq hiss olunur. Hərçənd ki, ərazi bütövlüyünün təmin edilməsi, Azərbaycanın ədalətsizliyə qarşı mübarizəsi heç kim tərəfindən sual altına alınmamalıdır. Ölkəmizin Vətən müharibəsindəki Qələbəsi, əslində, dünyada haqq-ədalətin təntənəsi idi. Ancaq Fransa kimi ədalətsizliyin tərəfində dayanan, islamofob, türkofob və azərbaycanofob ölkə mütəmadi olaraq bu cür qərəzli bəyanatlar verə bilər.

Azərbaycan iqtisadi rayonlarından biri olan Qarabağa humanitar yük çatdırmaq üçün Ağdam–Xankəndi yolunu təklif edib. Əgər Qarabağda onların iddia etdikləri kimi, humanitar böhran yaşanırsa, nə üçün yolun girişinə beton bloklar yığırlar? Zəhmət çəkib yolu açsınlar və humanitar yük aparan nəqliyyat vasitələrinin girişinə şərait yaratsınlar. Ancaq bunu etmirlər və şou yaratmağa davam edirlər. Nəticədə Azərbaycanla bağlı beynəlxalq aləmdə mənfi rəy yaradırlar. Bizim Xarici İşlər Nazirliyimiz, BMT, ATƏT kimi beynəlxalq təşkilatlar yanındakı nümayəndələrimiz ermənilərin bu iddialarına tutarlı cavab verirlər və əminik ki, bundan sonra da davam edəcəklər.

Ermənistanın, Fransanın və onlara yaxın dövlətlərin istəyi İrəvanla Bakı arasında sülh müqaviləsinin imzalanmasına imkan verməməkdir. Onlar separatçılığın inkişaf etməsini, yeni gərginliyin baş verməsini istəyirlər. Bu istiqamətdə edilən səyləri başqa cür izah etmək olmur. İyulun 25-də Moskvada Ceyhun Bayramovla Ararat Mirzoyan arasında keçirilən görüşdən bir gün sonra Ermənistanın Azərbaycanın razılığını almadan, birtərəfli qaydada Qarabağa "humanitar yük" adı altında avtomobil konvoylarını göndərməsi Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı növbəti təxribatdır. Bu addım yalnız və yalnız yeni gərginlik yaratmağa hesablanıb. Paris isə bu təxribatçı addımları dəstəkləməklə özünün əsl mahiyyətini ortaya qoyur. Onun bundan sonra özünü danışıqlar prosesinə bu və digər şəkildə sırıması heç cür mümkün olmayacaq. Halbuki Avropa İttifaqının aparıcı ölkələrindən sayılan Fransa İrəvan-Bakı münasibətlərinin yaxşılaşmasına töhfə verə bilərdi. Ancaq Paris barışdırıcı yox, qızışdırıcı mövqeyi ilə yadda qaldı. Buna görə artıq Afrika qitəsində də heç bir dövlət digər ölkə ilə arasında olan ziddiyyətlərin Fransa vasitəsilə həll ediləcəyinə inanmır. Çünki Fransanın əsl niyyətinin nə olduğu hamıya bəllidir.

Bəyanatda Laçın yolunun "Laçın dəhlizi" adlandırılmasına gəldikdə isə qeyd etmək lazımdır ki, Fransa XİN burada da təhrifə yol verir. Məsələ ondadır ki, 44 günlük Vətən müharibəsi bir sıra anlayışlar kimi, "Laçın dəhlizi" anlayışının da siyasi leksikondan çıxmasına gətirib çıxardı. "Laçın dəhlizi" işğal dövründə azərbaycanlılar üçün göz dağı idi. Belə ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ilə Ermənistan arasında quru yol mövcud deyildi. Yeganə yol keçmiş DQMV-yə daxil olmayan Laçın rayonu ərazisindən keçən altı kilometr uzunluğa malik və "Laçın dəhlizi" adı verilən dağ yolu idi.

Strateji əhəmiyyətə malik Laçın rayonu 1992-ci ilin mayında işğal altına düşdükdən sonra Qarabağla Ermənistan arasında quru yolla əlaqə yarandı. Laçının işğalı və yolun erməni silahlı dəstələrinin nəzarəti altına keçməsi digər rayonlarımızın işğalının sürətlənməsinə səbəb oldu. Nəticədə qısa müddət ərzində keçmiş DQMV-yə daxil olmayan bir neçə rayonumuz işğal altına düşdü. İşğal müddətində Ermənistan və Qarabağ erməniləri, xaricdəki diaspor nümayəndələri, diasporun pulu ilə hərəkət edən şəxslər bu yol vasitəsilə Azərbaycan ərazilərinə istədikləri qədər girib-çıxıblar. Bura, belə deyək, bir növ açıq qapı olub. Hətta Laçın rayonu 2020-ci ilin dekabrın 1-də işğaldan azad olunduqdan sonra da bu yoldan istifadə etməklə qeyri-qanuni fəaliyyət aparılıb, Ermənistandan Azərbaycan ərazisinə hərbi təchizat və minalar bu yolla daşınıb, qanunsuz hərbi birləşmələrin rotasiyası, üçüncü ölkə vətəndaşlarının icazəsiz əraziyə gətirilməsi kimi faktlar qeydə alınıb. Azərbaycan tərəfindən dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, bu fəaliyyətlərin qarşısının alınması üçün heç bir tədbir görülməyib. Nəhayət, 2022-ci ilin avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri üzərində Azərbaycanın nəzarəti təmin edildikdən sonra Qarabağ erməniləri Ermənistana yeni çəkilmiş yolla hərəkət etməyə başlayıblar. "Laçın dəhlizi" sözü isə "Dağlıq Qarabağ" sözü kimi tarixin arxivinə göndərilib. İndi Fransa XİN-in artıq olmayan dəhlizdən bəhs etməsi istehza doğurur.

Bundan əlavə, Azərbaycan beynəlxalq norma və qaydalara uyğun olaraq aprelin 23-də Laçın sərhəd nəzarət-buraxılış məntəqəsini yaradaraq özü bütün bu qanunsuzluqlara, özbaşınalıqlara son qoyub. Bütün bu həqiqətləri hansısa sadə fransız bilməyə bilər. Lakin 434 illik tarixi olan (1589-cu ildə xarici siyasətin ayrı-ayrı sahələrində ixtisaslaşmış dörd Fransa Dövlət Katibliyi birləşdirilib və xarici işlər üzrə dövlət katibi təyin edilib-S.H.), ATƏT-in keçmiş Minsk qrupunun üç həmsədr dövlətindən biri kimi prosesin bütün incəliklərinə bələd olan Fransa XİN-in bunu bilməməsi qətiyyən mümkün deyil. Fransanın bilərəkdən bu cür hərəkət etməsi isə onun İrəvan-Bakı münasibətlərinə nə dərəcədə qeyri-obyektiv yanaşdığını, qərəzli olduğunu və beynəlxalq hüququ heçə saydığını bir daha nümayiş etdirir.

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

# Tehranın yeni təşəbbüsünü sözdə deyil, əməldə görək

## *İranın təklif etdiyi "3+3" formatında danışıqlar regionda sülhün və təhlükəsizliyin təmin olunmasını nəzərdə tutur*



**İranın Xarici İşlər Nazirliyi Azərbaycan və Ermənistan arasında sülhə nail olmaq üçün "3+3" formatlı danışıqlar keçirməyə hazır olduğunu bildirib. Bu barədə erməni həmkarı ilə birgə təşkil edilən mətbuat konfransında məlumat verən İran XİN-nin başçısı Hüseyn Əmir Abdullahian ölkəsi üçün Cənubi Qafqazın mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. Habelə nazir qeyd edib ki, "İran region ölkələri arasında yaxınlaşmanı və Ermənistanla Azərbaycan arasında sülh danışıqlarında irəliləyişi alqışlayır".**

Açıqlamadan da göründüyü kimi, İran Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsində təşəbbüsü öz üzərinə götürməyə cəhd edir. Onun bu cəhddə nə dərəcədə səmimi olduğu bir ayrı mövzudur, amma istənilən dövlətin regionda sülh və sabitliyin bərqərar olması istiqamətində atdığı hər bir addım önəmlidir və Azərbaycan dövləti bu cür cəhdləri yüksək qiymətləndirir. Prezident İlham Əliyevin də daim qeyd etdiyi kimi, sülhün analoqu yoxdur və hər bir ölkənin tərəqqisi bilavasitə bu amilə bağlıdır. Bu baxımdan İranın Azərbaycan–Ermənistan arasında sülh prosesinə töhfə vermək cəhdi istənilən halda təqdirəlayiqdir.

* * *

Tehranın "3+3" formatı ilə bağlı irəli sürdüyü yeni təşəbbüsü cənub qonşumuzun Vətən müharibəsinin gedişində, indi isə Zəngəzur dəhlizinin açılması ilə bağlı sərgilədiyi mövqeyi ilə üst-üstə düşmür. Biz hələ Birinci Qarabağ müharibəsinin başlanğıcında Şuşanın erməni daşnakları tərəfindən işğalında İranın oynadığı şübhəli və müəmmalı rolunu yada salmaq istəmirik. Fəqət bu təşəbbüs Azərbaycan, Ermənistan və Gürcüstan, həmçinin İran, Türkiyə, Rusiya tərkibində müzakirələri və bölgəyə sülhün gəlişini nəzərdə tutursa, nə yaxşı. Əslində, Azərbaycan Ermənistan arasında sülhün bu formatda müzakirəsi milli maraqlarımızla heç bir ziddiyyət təşkil etmir. Əksinə, Azərbaycan hər zaman regionda sülh və təhlükəsizliyin bütün region dövlətlərinin birgə iştirakı və səyi ilə həllində maraqlı olub. Qeyd edək ki, Prezident İlham Əliyev daim beynəlxalq təşkilatlardakı çıxışlarında, eləcə də mediaya müsahibələrində sülhün qorunmasında hər bir region dövlətinin səy göstərməsinin vacib olduğunu bildirib, bu sahədə birgə əməkdaşlığın önəminə toxunub. Elə Qoşulmama Hərəkatının Bakı Zirvə görüşü çərçivəsində İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahianı qəbul edən dövlətimizin başçısı İranın sülhə, qarşılıqlı etimada yönəlik addımlarının Azərbaycan tərəfindən dəyərləndiriləcəyini bildirmişdi. Bu zaman iki xalq arasında çoxəsrlik yaxın qonşuluq, dostluq münasibətləri xüsusi olaraq vurğulanmışdı. Bəli, Bakı obyektiv və ədalətli mövqeyi cənub qonşusu ilə yanaşı, şimal qonşusundan da gözləyir. Əyani misal olaraq cənab Prezidentin 2022-ci ilin 26 sentyabr tarixində Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətini qəbulu zamanı dediklərinə diqqət yetirək: "Əlbəttə, bizim regionda sülh bütün ölkələr, bütün xalqlar üçün zəruridir. Bizim gündəliyimiz kifayət qədər birmənalıdır. Biz dəfələrlə bildirmişik ki, uzunmüddətli və davamlı sülhün, qonşularımızla bağlı bütün problemlərin həllinin və bu regionun 30 il ərzində olduğu ağır vəziyyətdən çıxmasının tərəfdarıyıq".

Bu baxımdan, Azərbaycanla Ermənistan arasında etibarlı və davamlı sülhün bərqərar olmasında region dövlətlərinin də iştirakı rəsmi Bakının ənənəvi mövqeyinə uyğundur. Əslində, sülhün bu formatda təminatı prosesdə iştirak edən bütün dövlətlərin məsuliyyətinin artırılması, onların birlik və əməkdaşlığının güclənməsi baxımından da faydalı addım olar.

* * *

Sülh danışıqlarının "3+3" formatında təşkili prosesdə iştirak edəcək dövlətlərlə ölkəmizin münasibətləri baxımından da Azərbaycan üçün uğurlu sayıla bilər. Xatırladaq ki, prosesdə Azərbaycanla Ermənistan xaricində 4 dövlətin iştirakı nəzərdə tutulur ki, onların 3-ü Azərbaycanın strateji müttəfiqidir. Bunlar Türkiyə, Rusiya və Gürcüstandır. Rəsmi Tehranın son illər Ermənistanı birmənalı şəkildə dəstəkləməsi, onun Azərbaycanın ədalətli mövqeyinə qarşı ermənipərəst bəyanatlarını nəzərə almasaq, Bakı İranla münasibətlərinin hər zaman mehriban qonşuluğa əsaslanmasının tərəfdarı olub. İranda on milyonlarla soydaşımızın yaşaması faktının özü Azərbaycanın bu dövlətlə münasibətlərinə korrektələr edən mühüm nüanslardandır. Amma bu münasibətlər qarşılıqlı hörmətə və səmimiyyətə söykənəndə sağlam və möhkəm olur.

Azərbaycanın "3+3" formatlı danışıqlara əsasən, dost və müttəfiq ölkələrlə qatılacağı şübhəsizdir. Bütün bunları nəzərə alaraq söyləmək oalr ki, Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının unudulmuş "3+3" formatına qayıdışı milli və dövlətçilik maraqlarımıza uyğun hesab etmək olar.

* * *

Bunu da qeyd etmək yerinə düşər ki, iyulun 27-də xarici işlər naziri Ceyhun Bayramov ilə iranlı həmkarı Hüseyn Əmir Abdullahian arasında telefon danışığı olub. Nazirlər ikitərəfli və regional gündəlikdə duran məsələlər, postmüharibə dövründə bölgədəki vəziyyət, eləcə də Azərbaycan–İran iqtisadi, ticarət və humanitar əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədrləri arasında keçirilmiş son görüşdən irəli gələn məsələləri müzakirə ediblər. Telefon danışığı zamanı Ceyhun Bayramov son zamanlar Laçın yolu ətrafında və bölgədə humanitar vəziyyətlə bağlı yayılan iddiaların İrəvanın siyasi manipulyasiyasından başqa bir şey olmadığını diqqətə çatdırıb.

***Seymur ƏLİYEV***

## İcma: Fransa Azərbaycanın daxili işlərinə müdaxilə etməməlidir



***Qərbi Azərbaycan icması Fransa Xarici İşlər Nazirliyinin Laçın yolu ilə bağlı 2023-cü il 27 iyul tarixli qərəzli bəyanatını qınayır, Fransanı Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə, Azərbaycanın daxili işlərinə müdaxilə etməməyə çağırır.***

Bu barədə icmanın açıqlamasında bildirilib.

Qeyd olunub ki, Qərbi Azərbaycan İcması Fransanı ikili standartlar siyasətinə son qoymağa, beynəlxalq hüququn norma və prinsiplərini selektiv şəkildə təfsir etməməyə, icma ilə dialoqun aparılması və Qərbi azərbaycanlıların sülh və əmin-amanlıq şəraitində Ermənistanda öz dədə-baba yurdlarına qayıtması üçün Ermənistana çağırış etməyə dəvət edir.

## "Rədd ol, Fransa!"



***27 iyulda Nigerin paytaxtı Niamey şəhərində yüzlərlə insan parlament binası qarşısına toplaşaraq, Fransanın destruktiv fəaliyyətinin əleyhinə qarşı çıxış edib.***

Aksiya iştirakçıları "Rədd ol, Fransa! Fransa, bizi rahat burax!", "Fransa bizim problemləri həll edə bilmədi, taleyimizi öz əlimizə götürməliyik" və bu kimi digər anti-fransız sloqanlar səsləndirib. Onlar, həmçinin Fransa qoşunlarının Nigerdən çıxarılmasını tələb ediblər.

Yerli sakinlər müasir avadanlığa və NATO standartlarına uyğun Fransa ordusunun 2014-cü ildən regionda cihadçılara qarşı əməliyyat aparmaq adı altında mövcudluğuna baxmayaraq, terrorizmin hələ də davam etməsini, terror aktlarının azalmamasını anlaya bilmirlər və haqlı olaraq düşünürlər ki, Fransa regionda öz mövcudluğunu uzunmüddətli şəkildə təmin etmək üçün cihadçılara dəstək göstərir.

Turizm guşələri

# “Qala”da qal – istirahətdən razı qal

## Ünvan: İsmayıllı, Xanagah

**İsmayıllı rayonunda, Xanagah kəndinin yaxınlığında yerləşən “Castle” (“Qala”) istirahət mərkəzi yeni yaranmış turizm obyekti olsa da, artıq xeyli tanınıb. Bunun başlıca səbəbi təbiətin qoynunda qərar tutması ilə bərabər, turistlərə və qonaqlara yüksək səviyyədə xidmət göstərilməsidir.**






Cari turizm mövsümü başlanan kimi, “Castle”də həyat qaynamağa başlayıb. Mərkəzin 3 mərtəbədən ibarət otelində, ümumilikdə, 23 otaq var. Onların hamısı qonaqların qalması və rahat istirahət etməsi üçün bütün zəruri infrastrukturla təchiz olunub. Bundan əlavə, oteldə 2 konfrans zalı, 1 restoran, hovuz və SPA komleksi mövcuddur. Bu il əlavə olaraq otelin ərazisində 9 “A-frame” tipli gölətrafı kottec də quraşdırılıb.

**Mərkəzin direktoru Asif Əliyev söhbət zamanı dedi:**

– Bu cür müasir obyektlərin istifadəyə verilərək fəaliyyət göstərməsi Azərbaycanın mirvarisi hesab edilən İsmayıllının turizm potensialının möhkəmləndirilməsində çox mühüm rol oynayır. Bu, həm də yeni iş yerlərinin açılması deməkdir. Təkcə bizim obyektdə 50 nəfər rayon sakini işlə təmin edilib. Həm xidmət şəbəkəsini genişləndirməyə, həm də qonaqların qulluğunda yüksək səviyyədə dayanmağa çalışırıq.

İstirahət mərkəzində özümüz də şahidi olduq ki, burada günlərin şən və maraqlı keçməsi üçün tez-tez əyləncə saatları, tanınmış müğənnilərin konsertləri, idman yarışları təşkil edilir. Açıq və örtülü hovuzlar, SPA, saunalar da adamların xidmətindədir.

“Castle”də dincələn xarici turistlər həm İsmayıllının təbii gözəlliyinə valeh olur, həm də ürəkləri istəyən kimi dincələrək yüksək xidmətdən, sözün əsl mənasında, zövq alırlar. Onların özəl təəssüratlarını təqdim edirik.

**Barbara Znaydzilauskayte, Litvanın paytaxtı Vilnüs şəhərinin sakini:**

– Bundan əvvəl də Azərbaycana səfərlərim olub. Qax rayonunda istirahətdən zövq almışam. Oradakı İçəri bazarı gəzdiyim ecazkar anlar hələ də yadımdadır. Qaxda olduğu kimi, İsmayıllıda da ətrafın təbii gözəllikləri – dağlar, meşələr, buz bulaqlar, təmiz hava, insanların mehribanlığı, xidmətin yüksək səviyyədə təşkili məni son dərəcə məmnun edib. “Castle”nin rəhbərliyinə və xidmət personalına təşəkkürümü bildirirəm. İmkan olsa, yenə də misilsiz Odlar diyarınıza gələcəyəm.



**Marina Balabanova, Ukraynanın Nikolayev şəhər sakini:**

– Hazırda mənim vətənimdə müharibə gedir. Burada siz azərbaycanlılardan gördüyüm həssas münasibət, diqqət və qayğı məni son dərəcə təsirləndirib. İnanın ki, yarı canım Ukraynada olsa da, burada hər kəs mənə həyan olmağa, dərdimi az-çox ovutmağa çalışır. Bakının, Gəncənin şəhər kimi gözəllikləri öz yerində, burada – təbiətin ruhoxşayan, əsrarəngiz qoynunda olmaq özü bir aləmdir. İnanıram ki, yaradılan şərait təkcə mənim deyil, bütün qonaqların xoşuna gəlir. Rayonun digər gəzməli və görməli yerlərinə ekskursiyalar xüsusilə yaddaqalan olur.

“Castle”də Azərbaycanın ayrı-ayrı rayonlarından istirahətə gələn vətəndaşlarımız da məmnuniyyətlə dincəlirlər. Onların arasında ailəlikcə buraya gələnlər də çoxdur. Böyüklərin tilovla balıq tutması, uşaqların əylənməsi üçün də hər cür imkan yaradılıb.

**Əfqan Hüseynov, Göygöl rayonu Balçılı kənd sakini:**

– Mən ölkəmizin ayrı-ayrı guşələrində bu cür nümunəvi istirahət məkanlarının olması ilə fəxr edirəm. İsmayıllı Azərbaycanın dilbər guşələrindəndir. Artıq 2-ci dəfədir ki, istirahət üçün buranı seçirik. Çünki ötən dəfə buralar anamın çox xoşuna gəlmişdi. Yeniliklərin olması da fərəh doğurur. Bu, o deməkdir ki, mərkəzin kollektivi nail olunanlarla kifayətlənmir, buranı daha da gözəlləşdirmək üçün səylər göstərir. Məsələn, ötən il bu rahat kotteclər yox idi. Yeniliklər qonaqların, eləcə də xarici turistlərin istirahətinin rəngarəngliyinə xidmət edir.

Məsəl var, deyilir ki, çox gəzən çox oxuyandan artıq bilər. İsmayıllıdakı “Castle”də müşahidə etdiklərimiz göstərdi ki, qonaqlar ölkəmizin müxtəlif guşələri ilə bağlı zəngin bilgilər əldə edir, üstəlik də buradan ən xoş təəssüratlarla gedirlər.

**İlqar HƏSƏNOV,**
**“Xalq qəzeti”nin bölgə müxbiri**

**“Prezident İlham Əliyevin tapşırığı ilə 2023-cü ilin əvvəlində reallaşdırılan 4-cü sosial islahat paketi 1,9 milyon şəxsi əhatə etməklə illik əlavə maliyyə tutumu 750 milyon manat olub”. Bu fikirləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Sosial Müdafiə Fondunda I yarımilin yekunları, yeniliklər və qarşıda duran hədəflərə dair keçirilən mətbuat konfransında fondun idarə heyətinin sədri Himalay Məmişov deyib.**

# DSMF-nin gəliri 3 milyard 271 milyon manat olub



2023-cü ilin I yarımilində həyata keçirilən sosial islahatlar barədə məlumat verən fond sədri bildirib ki, bu ilin I yarımilində sosial ödənişlərdə artım qeydə alınıb. Artımlar, ümumilikdə, 810 min nəfəri əhatə edib, əlavə vəsaitin illik həcmi isə 310 milyon manat təşkil edib. Fevral ayından minimum pensiya 16,7 faiz artırılaraq, 280 manata çatdırılıb. İlin əvvəlindən isə orta aylıq pensiya 16,4 faiz artırılaraq 433,3 manata, o cümlədən yaşa görə pensiya 16,4 faiz artırılaraq 466,1 manata çatdırılıb. Bundan başqa, 24 növ sosial ödənişlərin məbləğlərində orta hesabla 22 faiz artım olub.

H.Məmişov DSMF-nin gəlirlərində artım tempinin 2023-cü ilin I yarımilində də davam etdiyini diqqətə çatdırıb. Bildirib ki, DSMF-nin bu ilin I yarımilində gəlirləri ötən ilin müvafiq dövrünə nisbətdə 465 milyon manat və ya 16,6 faiz çox olmaqla, 3 milyard 271 milyon manat təşkil edib. Həmin gəlirlərin 2 milyard 531 milyon manatı məcburi dövlət sosial sığorta daxilolmalardır ki, bu da 2022-ci ilin I yarımili ilə müqayisədə 13,8 faiz və ya 306 milyon manat çoxdur.

Fondun ilin 6 ayındakı xərcləri isə ötən ilə nisbətən 16,2 faiz və ya 418 milyon manat artaraq 3 milyard 9 milyon manat olub. Xərclərin 2 milyard 919 milyon manatını əhaliyə ödənişlər təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 16,5 faiz və ya 413 milyon manat çoxdur.

Son beş ildə 4 milyon nəfəri əhatə edən 4 sosial islahat paketinin icra olunduğu, minimum pensiyanın 2,5 dəfə, sosial müavinət və təqaüd ödənişlərinin 5 dəfə, ünvanlı dövlət sosial yardımın orta aylıq məbləğinin isə 2,5 dəfə artırıldığı vurğulanıb. Bildirilib ki, 10-dan çox yeni sosial ödəniş növü–sosial müavinət və Prezident təqaüdü təsis olunaraq sosial təminat sistemində bir sıra humanist yanaşmalar, güzəştlər tətbiq edilməklə bu sistemin əhatə dairəsi daha da genişləndirilib.

Sonra investisiya fəaliyyətinin təşkili, investisiya qaydası, investisiya siyasəti və görülən işlər barədə məlumat verilib, beynəlxalq əməkdaşlıq sahəsində bir sıra uğurlara imza atıldığı qeyd edilib, fondun təkcə bu il 6 nüfuzlu beynəlxalq mükafata layiq görüldüyü bildirilib.

Mətbuat konfransında, həmçinin ötən dövrdə fond tərəfindən ümumilikdə 331 min 10 vətəndaşın qəbul edildiyi vurğulanıb.

**Zərifə BƏŞİRQIZI,**
**“Xalq qəzeti”**

# Prezidentin xüsusi nümayəndəsinin QDF dostları ilə görüşü

**Dünən Qarabağ Dirçəliş Fondunun təşkilatçılığı və Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynovun iştirakı ilə Fondun donor və tərəfdaşları olan aparıcı ölkə şirkətlərinin və ictimaiyyətin nümayəndələri arasında görüş keçirilib.**





Toplantıda Qarabağda həyata keçirilən bərpa və quruculuq prosesi, bu sahədə biznes, cəmiyyət və dövlət strukturları arasında əməkdaşlığın inkişafı, keçmiş məcburi köçkünlərin Qarabağa qayıdışı və digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov “Qarabağ: Yenidənqurma və inkişaf, regionun investisiya imkanları” mövzusunda təqdimatla çıxış edib. Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev aparılan bərpa və yenidənqurma işlərinin sürətlə davam etdiyini, QDF-in donorların bu prosesə öz töhfəsini verdiyini söyləyib.

Sonra görüş müzakirələrlə davam edib.

*“Xalq qəzeti”*

# Kənd Təsərrüfatı Nazirliyində BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi ilə görüş olub

**Kənd təsərrüfatı naziri Məcnun Məmmədov BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva ilə görüşüb.**

Nazir Məcnun Məmmədov Azərbaycanda aqrar sektora dövlət dəstəyi barədə görüş iştirakçılarına ətraflı məlumat verib. Nazirliyin beynəlxalq təşkilatlarla əməkdaşlıqda maraqlı olduğunu deyən nazir bildirib ki, ərzaq təhlükəsizliyinin, o cümlədən ölkə əhalisinin keyfiyyətli, sağlam ərzaq məhsulları ilə təmin olunması və kənd yerlərinin inkişafı aqrar siyasətin prioritet istiqamətlərindəndir.

Vladanka Andreyeva Azərbaycanla əlaqələrin inkişafından məmnunluğunu ifadə edib. O, Azərbaycanın BMT-nin Qida Sistemləri Sammitində fəal iştirakının təqdirəlayiq olduğunu vurğulayıb.



Sosial sfera yenilikləri

# Əlillik təyinatının şərtləri asanlaşıb

**Nazirlər Kabineti “Əlilliyin müəyyən olunması meyarları”nda dəyişiklik edilməsi haqqında” qərar qəbul edib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, həmin qərarda əlilliyə əsas verən meyarların sayı artırılaraq 563-dən 590-a çatdırılıb.**

Dəyişikliklərə əsasən, bir sıra meyarlar üzrə orqanizmin funksiyalarının pozulması faizi, bəzi nüanslar üzrə isə orqanizmin funksiyalarının pozulması müddəti artırılıb və ya “müddətsiz” olaraq qeyd olunub. Həmçinin 18 yaşadək birinci tip şəkər xəstəliyi olan uşaqlarda ağırlaşmalarla bağlı tələb, əqli geriliyi olan 8 yaşadək uşaqlarda IQ test tələbi aradan qaldırılıb.



Bundan başqa, genetik, eyni zamanda, xromosom anomaliyalı xəstəliklər üzrə orqanizmin funksiyalarının pozulma faizinin minimum həddi artırılaraq 65 faiz və daha yüksək olaraq müəyyənləşdirilib.

# Stasionar və onlayn reabilitasiya xidmətləri



**Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin uşaq reabilitasiya mərkəzlərində bu ilin yanvar–iyun aylarında 18 yaşadək əlilliyi olan 8 min 227 nəfərə reabilitasiya xidmətləri göstərilib.**

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, onlardan 4 min 504 nəfərinə ambulator, 835 şəxsə stasionar, 2525 nəfərə onlayn, digərlərinə isə sosial–psixoloji, səyyar və digər formalarda reabilitasiya xidmətləri göstərilib.

Qeyd edək ki, Bakı və Qəbələdə 18 yaşadək əlilliyi olanları bərpa xidmətləri ilə təmin edən 3 uşaq reabilitasiya mərkəzi fəaliyyət göstərir.

Hazırda həmin kateqoriyadan olan uşaqların reabilitasiya infrastrukturunun genişləndirilməsi sahəsində Şəmkirdə 25 çarpayılıq uşaq reabilitasiya mərkəzinin tikintisi davam etdirilir, Quba və Ağcabədidə isə yeni mərkəzlərin tikilərək istifadəyə verilməsi nəzərdə tutulur.

# 6791 şəxs özünüməşğulluq proqramına cəlb edilib

**Dövlət Məşğulluq Agentliyi özünüməşğulluq proqramının icrasında sosial cəhətdən həssas əhali qruplarına, o cümlədən əlilliyi olan şəxslərə üstünlük verir. Bu ilin yanvar–iyun aylarında 604 əlil şəxs özünüməşğulluq proqramına cəlb edilib.**

Qeyd edək ki, həmin dövrdə, ümumilikdə, 6 min 791 şəxs, o cümlədən 163 şəhid ailəsi üzvü, 549 məcburi köçkün, 1041 gənc, 2 min 20 qadın və digər həssas kateqoriyalı şəxslər bu proqrama cəlb edilib.

**Zərifə HÜSEYNOVA,**
**“Xalq qəzeti”**



# Qəbələ Beynəlxalq Musiqi Festivalında Sergey Raxmaninovun əsərləri səsləndirilib

**XIII Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində iyulun 28-də axşam açıq səhnədə musiqisevərlərə növbəti konsert proqramı təqdim olunub.**

Konsertdən əvvəl Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti Zəhra Quliyeva çıxış edərək deyib: “Qəbələ Beynəlxalq Musiqi Festivalının çox gözəl bir ənənəsi var - illərindən asılı olaraq, musiqi mədəniyyətinə böyük töhfələr verən bəstəkarların, ifaçıların yubileylərini qeyd etmək, onların əsərlərini səsləndirməklə bir daha o dahilərin önündə baş əymək və onları anmaq. 2023-cü il həm də Sergey Raxmaninovun anadan olmasının 150 illiyi ilə əlamətdardır. Raxmaninovun musiqisinin paklığı, mərhəməti hər zaman tamaşaçının diqqətini özünə çəkir. Şərqlə bağlı olan yaddaşından irəli gələn bağlantıları ilə Raxmaninov musiqisinə bəşəri səs, harmoniya gəlir. Məhz bu bəşəri bağlantını daha gözəl surətdə festival iştirakçılarına çatdırmaq üçün bu gün Raxmaninov musiqisini digər bir dahinin – Vilyam Şekspirin sonetləri ilə birləşdirib diqqətinizə çatdırırıq”.

Konsertin birinci hissəsində Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında Sergey Raxmaninovun “Piano və orkestr üçün konsert” əsəri səsləndirilib. Orkestrin bədii rəhbəri və baş dirijoru Əməkdar artist Fuad İbrahimovdur.

Sonra respublika və beynəlxalq müsabiqələr laureatı pianoçu Əli Məmmədov orkestrin müşayiəti ilə dahi bəstəkarın digər əsərlərini ifa edib.

Festival çərçivəsində iyulun 29-da saat 18:00-da Heydər Əliyev Konqres Mərkəzində tamaşaçılara kamera musiqisi təqdim ediləcək.

* * *

**XIII Qəbələ Musiqi Festivalının proqramına uyğun olaraq, iyulun 28-də Heydər Əliyev Konqres Mərkəzində M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının “Gənclərə dəstək” layihəsi çərçivəsində gənc ifaçıların iştirakı ilə növbəti konsert proqramı təqdim olunub.**

Tamilla Əhədova (piano), Nərminə İsmayılova (piano), Camalə Abdinzadə (piano), Çinarə Əzimova (soprano), Surə Rüfət (violin), Humay Hacızadə (viola), Aytən Rüstəmli (kamança), Mirxalid Məmmədzadə (fleyta), Cəlil Bəşirli (tar) və Vaqif Qurbanovun (cello) ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. İfaçıları pianoda Svetlana Əhmədova, Rəfiqə Quluzadə və Nuridə Novruzova müşayiət ediblər.

Konsertdə Fikrət Əmirovun, Firəngiz Əlizadənin, həmçinin P.Çaykovskiy, H. Vieuxtemps, G.Bizet, V.Horovits, V.Monti, R.Şuman, Ch.Gounod, L.Əhmədova, T.Əhədova, R.Əhmədzadə və digər bəstəkarların əsərləri səsləndirilib.

Qeyd edək ki, “Gənclərə dəstək” layihəsinin məqsədi gənc və istedadlı ifaçıların, bəstəkarların gələcək böyük sənət həyatına vəsiqə verməkdir. “Gənclərə dəstək” layihəsi cəmi yeddi ildir yaranmasına baxmayaraq, artıq ölkəmizin hüdudlarından kənarda da tanınır.

***“Xalq qəzeti”***






# Ukrayna: Qərb, yoxsa Rusiya silahı...

**Son iki gündə qlobal mediada Rusiya–Ukrayna cəbhəsində intensiv döyüşlərin başlandığı barədə məlumatlar geniş yer alır. CNN telekanalı xəbər verir ki, Ukraynanın iki aydır davam edən və ağır irəliləyən əks-hücumu, nəhayət, sürətlənir.**



ABŞ və Rusiya rəsmilərinin açıqlamalarına görə, Kiyev cəbhənin cənub cəbhəsinə minlərlə yeni qüvvələr yerləşdirir və əməliyyatın yeni mərhələsinin başladıldığının siqnalını verir.

ABŞ rəsmiləri bildirirlər ki, Ukrayna ordusunun daha güclü Qərb silahlarına malik təlim keçmiş qoşunları əks-hücumun başladığı iyun ayından bəri gözləmə mövqeyində olublar, lakin indi Ukrayna bu qoşunların əsas hissəsini əks-hücumlara cəlb edir. Ümid edilir ki, Ukraynanın bu addımı müəyyən nəticələr gətirəcək.

Bu arada Rusiyanın nəzarətində olan Zaporoje vilayətinin rəsmi nümayəndəsi Vladimir Roqov Ukraynanın regiondakı əks-hücumunun növbəti dalğasının başladığını bəyan edib. Rusiya rəsmiləri də cəbhədə intensiv döyüşlərin getdiyini gizlətmirlər.

UNİAN agentliyi xəbər verir ki, Ukrayna Silahlı Qüvvələri dünən Donetsk vilayətinin Volnovaxsk rayonunun Staromayorski kəndini Rusiya ordusundan azad ediblər. Yeri gəlmişkən, Ukrayna Prezidenti Volodimir Zelenski bu barədə özünün “Teleqram” kanalındakı səhifəsində məlumat verib.

Dövlət başçısı Ukrayna Silahlı Qüvvələrinin döyüşçülərinin ölkənin cənubundakı Staromayorski kəndini azad etdiyini əks etdirən video yayımlayıb. “Bizim cənub! Bizim oğlanlar! Yaşasın Ukrayna!”, – deyə Zelenski sevincək yazıb.

Ukrayna müdafiə nazirinin müavini Anna Malyar öz növbəsində kəndin təmizlənməsi barədə məlumat verib. “İndi müdafiəçilərimiz kəndi təmizləməyə davam edirlər”, – o, sosial şəbəkələrdəki hesabında yazıb.

Qeyd edək ki, üç gün əvvəl Ukrayna müdafiəçiləri Rusiya hərbçilərini Donetsk vilayətinin Andreyevka kəndindən də çıxarıblar. Ukraynalı əsgərlərin bir qədər irəli getdikləri barədə xəbərlər yayılıb.

Rusiyalı və ukraynalı hərbi bloqçular Ukrayna qüvvələrinin ruslar tərəfindən salınan çoxsaylı minalanmış sahələrdən, ən azı, birini yardığını və Orexovodan cənubda, Robotino kəndi ətrafında cüzi ərazi qazanmalarını qeyd ediblər.

Dünən səhər saatlarında Moskva şəhərinə Ukraynaya məxsus pilotsuz uçuş aparatları (PUA) ilə hücum olub. Rusiya Müdafiə Nazirliyinin məlumatında da bildirilir ki, PUA-lar hava hücumundan müdafiə vasitələri tərəfindən məhv edilib. Hücum nəticəsində itki və dağıntı qeydə alınmayıb. Qeyd edək ki, əvvəllər də Moskvaya PUA-larla hücum hadisəsi baş verib.

Amerikanın “New York Times” nəşri əks-hücum əməliyyatına əlavə Ukrayna qüvvələrinin daxil olması barədə məlumat yayıb. Digər Qərb KİV-ləri də öz mənbələrinə istinadən yazır ki, Ukrayna Silahlı Qüvvələri hücumlarını artırıb.

Onu da qeyd edək ki, həftənin əvvəlində müdafiə naziri Oleksiy Reznikov Ukraynanın əks-hücumunun həqiqətən də ilkin qrafikdən geri qaldığını, lakin ümumilikdə plana uyğun getdiyini bildirib.

Rusiya aviasiyası da hər gün Ukraynanın iri və kiçik şəhər və kəndlərini bombalamaqda davam edir. Dünən Xarkov və Odessa şəhərləri çox sayda raket atəşinə məruz qalıb. Ölən və yaralananlar barədə məlumat verilmir.

ABŞ dövlət katibi Elntoni Blinken Ağ evin Ukrayna Silahlı Qüvvələrinin əks-hücumunun bir neçə aydan sonra başa çatmasını gözlədiyini bildirib: “Bu hücum qarşıdakı bir-iki həftəyə yekunlaşmayacaq. Biz əvvəlki kimi, bir neçə ay variantı üzərində dayanırıq”.

Bu arada Pentaqon tərəfindən “Abrams” tanklarının Ukraynaya təhvil veriləcəyi tarix açıqlanıb. Texnikalar bu ilin sentyabr ayında Ukraynaya veriləcək.

“Politico” nəşrinin yazdığına görə, ABŞ bir neçə “Abrams”ı Almaniyaya göndərməyi planlaşdırır. Tanklar burada təmir olunduqdan sonra Ukraynaya veriləcək.

ABŞ Konqresinin nümayəndəsinin sözlərinə görə, ilkin partiyaya 6-dan 8-ə qədər “Abrams” daxil olacaq. Ümumilikdə, 31 tankın Ukraynaya tədarükü gözlənilir.

ABŞ kəşfiyyatının məlumatına görə, Çin beynəlxalq sanksiyalara və ixrac nəzarətinə baxmayaraq, Ukraynaya qarşı müharibədə istifadə etmək üçün Rusiyaya hərbi və ikili təyinatlı texnologiyalar təqdim edir.

Bildirilir ki, gömrük qeydlərinə görə, Çinin dövlət müdafiə şirkətləri Rusiyanın dövlət müdafiə şirkətlərinə naviqasiya avadanlığı, qırıcı təyyarə hissələri və digər texnologiyalar göndərir.

ABŞ kəşfiyyatı qeyd edir ki, Rusiyanın Ukraynaya genişmiqyaslı müdaxiləsindən sonra Çin “daha mühüm tərəfdaşa” çevrilib. Bu zaman ticarət Çin yuanı ilə həyata keçirilir. Çin, eyni zamanda Rusiyanın enerji məhsullarının idxalını artırıb və hər iki ölkədə maliyyə institutları daxili ödəniş sistemlərindən istifadəni genişləndiriblər. Beləliklə, rəsmi Pekin Moskvanı müharibədə iqtisadi və hərbi cəhətdən ayaqda qalmasına öz töhfəsini verir.

Ekspertlər bu bəyanata ironiya ilə yanaşırlar. Onlar hesab edirlər ki, döyüşlərin hazırkı mərhələsində iki tərəf arasında sülh danışıqlarının başlanması real görünmür.

**Ekspert rəyi**



**Atamoğlan MƏMMƏDLİ,**
**Bakı Dövlət Universitetinin professoru, tarix elmləri doktoru**

– Məlum olduğu kimi, Rusiya 2022-ci il fevralın 24-də Qərb qonşusu Ukraynaya qarşı genişmiqyaslı hərbi əməliyyata başlayıb. Rusiya rəsmiləri bunu “Xüsusi hərbi əməliyyat” adlandırır. Onların sözlərinə görə, əməliyyatın məqsədi Ukraynanın “denasifikasiya” və “demilatirizasiya”sını təmin etməkdir.

Lakin Rusiya hərbi əməliyyata başladığı müddət ərzində öz hədəfinə çata bilməyib və bundan sonra da niyyətinə nail ola biləcəyi qeyri-mümkün görünür. Qeyd edək ki, 2014-cü ildə Rusiya beynəlxalq hüquq və normalara məhəl qoymadan Ukraynanın tərkib hissəsi olan Krım yarımadasını ələ keçirərək onu ilhaq edib. Təəssüf ki, həmin dönəmdə böyük güclər, beynəlxalq ictimaiyyət buna ciddi etiraz etməyib.

Rəsmi Moskva bu dəfə də Ukraynada sürətli hərbi əməliyyat həyata keçirəcəyinə böyük ümidlər bəsləyirdi. Amma Ukrayna xalqı fədakarcasına doğma torpaqlarının müdafiəsinə qalxdı və artıq on səkkizinci aydır ki, öz ərazilərini azad etmək uğrunda ağır mübarizə aparır.

Rusiya–Ukrayna savaşı artıq uzunmüddətli bir müharibəyə çevrilib. Müharibədə hər iki tərəf böyük itkilər verib. Ukraynanın onlarla şəhəri, yüzlərlə kəndi dağıdılıb. Ölkə əhalisinin, az qala, dörddə biri qaçqın və köçkünə çevrilib. Müharibənin nə vaxt bitəcəyi isə bəlli deyil.

Son günlər Ukrayna Silahlı Qüvvələri cəbhənin bir çox istiqamətlərində fəallaşıblar. Lakin Rusiya tərəfi son aylar ərzində güclü müdafiə istehkamları yaratmağa müvəffəq olub. Minalanmış sahələri yarıb keçmək olduqca çətindir. Bununla bərabər, Ukrayna ordusu yüksək vətənpərvərlik əzmi ilə döyüşür və nəyin bahasına olursa-olsun, məqsədinə çatmaq əzmindədir.

Bu gün Ukraynada faktiki olaraq Qərb silahı və texnologiyası Rusiya silahına qarşı vuruşur. Qərb texnologiyalarının daha üstün olduğunu nəzərə alsaq, Ukrayna Ordusunun qələbə çalacağına ümidlər daha çoxdur. Eyni zamanda, nəzərə almaq lazımdır ki, Ukrayna əsgər və zabitləri daha motivasiyalıdırlar. Axı onlar öz tarixi torpaqlarını azad etməyə can atırlar.

Qeyd etmək lazımdır ki, ABŞ başda olmaqla Qərb dövlətləri Ukraynaya böyük həcmdə hərbi və maliyyə yardımı ayırsalar da, bu, faktiki olaraq kifayət etmir. Müharibələrin taleyini həm də resurslar həll edir. Tərəflər ümid edir ki, qarşı tərəfin texniki və canlı imkanları daha tez bitəcək. Beləliklə, biz hazırda dağıdıcı və uzunsürən bir müharibəyə şahidlik edirik.

**Məsaim ABDULLAYEV,**
**“Xalq qəzeti”**

**Bu il Məhərrəmlik təziyədarlığının Aşura günü iyulun 28-nə təsadüf etdi. Yaxın keçmişə qədər məscidlərdə bu dini hüzn günü sinədöymə, başyarma kimi fanatizm hallarına rast gəlinirdi.**

# Qan tökmə, qan ver!



Din alimləri, ziyalılar illərlə insanlara dində belə bir tələbin olmadığını izah etməyə çalışsalar da, onlar yenə də xurafata uyurdular. Dövrümüzdə bu hallar yaşanmır. Artıq bir neçə ildir ki, Aşura günündə insanlar qan verməyə çağırılır, bu məqsədlə aksiyalar təşkil edilir. Möminlər qan verərək, ehtiyacı olan insanların müalicəsində pay sahibi olur, savab qazanırlar.

**Hər il olduğu kimi, bu il də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə aksiyada iştirak edərək qan verdi. Jurnalistlərə xitab edən şeyx dedi:**



– Əvvəla, bütün müsəlmanlara başsağlığı verirəm, Allah rəhmət etsin. Bu gün bizim təşkil etdiyimiz aksiyalarda sünni və şiələr bir yerdə ibadət edir, qan verirlər. Bu aksiyamız qonşu dövlətlər üçün də nümunəyə çevrilib. Onlarda da qanvermə aksiyaları təşkil edilir. Biz bu aksiyanı daha çox təbliğ edib bir çox dövlətdə ənənəyə çevrilməsinə nail olmalıyıq. Bu gün mənim Almaniyadan gələn qonağım, Almaniya müsəlmanları mərkəzi şurasının sədri Ayman Mayzek də gördüyü mənzərəni təqdir edərək bunun çox yaxşı bir hal olduğunu vurğuladı.

**Ayman Mayzek də jurnalistlərə müsahibə verdi:**

– Burada olmağımdan və bu aksiyada iştirak etməyimdən məmnunam. Fəxr edirəm ki, mən də qan verirəm. Etiraf etməliyəm ki, Aşura mərasiminin belə sivil səviyyədə təşkilini və qanvermə aksiyasını ilk dəfədir görürəm. Bu, Azərbaycan xalqının təqdirəlayiq addımıdır. Bir həftədir buradayam və qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm.

Müsahibədən sonra Ayman Mayzek qan verdi. Aksiyada iştirak edən QMİ-nin sədr müavini Fuad Nurullayev bildirdi ki, bu aksiyalar paytaxtla yanaşı, bölgələrdə də təşkil edilib. Qanvermə Xəzər rayonu Mirmövsüm Ağa Ziyarətgahı, Nəsimi rayonu Göy məscidin (Əjdərbəy) mərasim zalı, Nizami rayonu Şah Abbas məscidi, Səbail rayonu Bibiheybət məscid ziyarətgahı, Suraxanı rayonu Qaraçuxur məscidi, Yasamal rayonu Təzəpir məscidi, Yasamal rayonu Hacı Soltanəli məscidi, Binəqədi rayonu İmam Əli məscidində və digər yerlərdə də olub. Aksiya, həmçinin Mərkəzi Qan Bankının Gəncə, Lənkəran, Sumqayıt, Mingəçevir, Şəki, Şirvan, Bərdə və Quba bölmələrində



təşkil edilib.

Müşahidələrimizə görə, əhali bu aksiyada iştarak etməyə böyük maraq göstərirdi. **Təzəpir məscidinə qan verməyə gələn donor Malik Hüseynov bildirdi ki,** Allah ömür verdikcə belə xeyir işlərdə iştirak edəcək. Təşkilatçılıqdan da razı qalan donor aksiyanın hər il daha da yüksək səviyyədə təşkil edildiyini, bu il uzun-uzadı növbələrdə dayanmadan rahat qan verdiyini dedi.

**Digər donor Nərgiz Əlizadə isə ilk dəfə qan verməyə gəldiyini dedi:**

– Ölkəmizdə qan xəstələri çoxdur, əgər mənim qanım kiminsə, xüsusən də uşaqların müalicəsinə səbəb olacaqsa, bu, mənim üçün böyük xoşbəxtlik olar.

Qeyd edək ki, 18-65 yaş arası olan və 50 kiloqramdan artıq çəkisi olan hər kəs qan verə bilər. Hansısa xəstəliklə əlaqədar dərman preparatı qəbul edənlər, cərrahi əməliyyat keçirənlər, döymə, hicama etdirənlər bir il qan verməməlidirlər. Hepatit A, C, İİV/QİÇS və sifilis testlərindən biri pozitiv olanlar qan verə bilməzlər. İnsulin qəbul edən şəkərli diabet xəstələrinin də qan verməsinə icazə verilmir.

**Rüfət MƏHƏRRƏMOV**

# Beynəlxalq olimpiya hərəkatı tarixindən iki ali məqam





**Yəqin, Azərbaycan nadir ölkələrdəndir ki, müxtəlif dövrlərdə ona rəhbərlik etmiş iki dövlət başçısı ali olimpiya mükafatına layiq görülmüşdür. Bu, hər iki görkəmli şəxsiyyətin idmana, olimpiya hərəkatına böyük sevgisinə, onların inkişafı üçün göstərdikləri xidmətlərə beynəlxalq idman dairələrində yüksək dəyər verilməsinin təkzibolunmaz təsdiqidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 1997-ci il iyulun 31-də Milli Olimpiya Komitəsinə rəhbər seçilməsinin 26-cı ilinin tamam olduğu bu günlərdə həmin mükafatların tarixini bir daha xatırlayaq.**

Dövlətimizin rəhbərinin olimpiya mükafatı ilə təltif olunması haqqında ilk xəbər 1997-ci ilin, səhv etmirəmsə, payızında Reykyavikdən gəldi. Onda Milli Olimpiya Komitələri Assosiasiyası özünün İslandiya paytaxtında keçirilmiş baş məclisində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin idmana göstərdiyi böyük qayğı və diqqətə görə "Olimpiya ləyaqəti" mükafatı ilə təltif olunması haqqında qərar qəbul etmişdi. Bu yüksək mükafata olimpiya hərəkatı və idman sahəsində böyük xidmətlərinə görə görkəmli dövlət xadimlərinin layiq görüldüyü də bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmışdı.

Həqiqətən, ümummilli lider idmanın inkişafının və uğurlarının ölkəyə necə böyük beynəlxalq nüfuz qazandırdığını, bu mühüm işə dövlət səviyyəsində daim hərtərəfli kömək göstərilməsinin vacibliyini hamıdan yaxşı bilirdi. Təsadüfi deyil ki, Heydər Əliyev idman ictimaiyyətinin nümayəndələri ilə görüşlərindən birində uzaqgörənliklə demişdi ki, idman, eyni zamanda, həqiqətən, hər xalqın, millətin başqa xalqlar içərisində şöhrətini yüksəldən sahələrdən biridir. İstəyirik ki, bizi hər yerdə tanısınlar, hər yerdə bilsinlər ki, Azərbaycan nəyə qadirdir və nədən ibarətdir.

Görülmüş gərgin və məqsədyönlü işlərin nəticəsi, barı-bəhrəsi bu gün göz qabağındadır. İndi Azərbaycan dünyada idmanın yüksək sürətlə inkişaf etdiyi ölkə kimi tanınır. Hətta xarici ölkələrdəki mütəxəssislər, jurnalist həmkarlarımız da yekdilliklə bildirirlər ki, Azərbaycan əhalisinin sayına görə kiçik bir ölkə olsa da, burada idmana xüsusi diqqət və qayğı var, bunun da sayəsində məşhur çempionlar yetişir.

Bu isə bir daha təsdiq edir ki, Milli Olimpiya Komitələri Assosiasiyasi Reykyavikdə keçirilən iclasında görkəmli dövlət xadimi, Azərbaycan Prezidenti Heydər Əliyevi "Olimpiya ləyaqəti" mükafatına layiq görməsi ilə ölkə başçısının beynəlxalq olimpiya hərəkatına verdiyi töhfələri layiqincə qiymətləndirmişdir. Bütün Azərbaycanın və onun dostlarının ulu öndərə minnətdarlıqla qeyd etdiyi dahi şəxsiyyətin 100 illik yubileyi ilində həmin "Olimpiya ləyaqəti" mükafatının Azərbaycana gətirilməsindən artıq 26 il ötür.

Belə bir məqam dərin rəmzi məna daşıyır ki, dövlətimizin indiki lideri İlham Əliyevin Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin prezidenti seçildiyi gündən də bizi 26 illik məsafə ayırır. Ölkə başçısı 1997-ci ildə olimpiya hərəkatımıza rəhbərliyə başladıqdan yeddi il sonra, 2004-cü ildə isə idmanımız adına daha bir şad xəbərə sevindik.

Həmin ilin mart ayında müasir Olimpiya oyunlarının vətəni Yunanıstanın paytaxtı Afinadan alınan məlumatda bildirilirdi ki, Azərbaycanın dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev Beynəlxalq Olimpiya Komitəsi İcraiyyə Komitəsinin bu şəhərdə keçirilmiş iclasında idmanın və olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə BOK-un ali mükafatı – "Olimpiya Ordeni"nə layiq görülmüşdür.

Özü də ölkəmiz üçün, Azərbaycanın dostları və idmanımızın pərəstişkarları üçün bu fərəhli hadisə bir başqa ildə yox, Afinada XXVIII Yay Olimpiya Oyunları ilində olimpiadaların vətəni Yunanıstanda baş vermiş və bu tarixi hadisə ilə bağlı təntənəli mərasim də orada baş tutmuşdu.

Mart ayında qəbul edilmiş həmin qərarın qəbulundan bir ay sonra, apreldə isə Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti Vitali Smirnov ali mükafatı Azərbaycan rəhbərinə təqdim etmək üçün Bakıya gəldi və bu missiyanı böyük məmnuniyyətlə yerinə yetirdi. Onun Prezident Sarayındakı çıxışında İlham Əliyevin idmanın inkişafında, ümumdünya olimpiya hərəkatının uğurlarında böyük xidmətləri minnətdarlıq hissi ilə vurğulandı: "Mən bu ordenlə təltif olunmağınızla bağlı iclasda iştirak etmişəm. Bu iclasda Beynəlxalq Olimpiya Komitəsinin prezidenti və dörd vitse-prezidenti iştirak edirdi. Onlar bu qərarı yekdilliklə qəbul edərək, Sizin ölkənizdə idmanın inkişafı və yüksəlişinə verdiyiniz şəxsi töhfələri xüsusi qeyd etdilər. Böyük məmnuniyyətlə vurğulandı ki, Siz ölkə prezidenti olduqdan sonra da Olimpiya Komitəsinin prezidenti vəzifəsində də qalmısınız. Bu, dövlətin başçısı kimi, Sizin bədən tərbiyəsi, idman və olimpiya hərəkatının inkişafına, sağlam və möhkəm gənclərin tərbiyəsinə necə böyük diqqət yetirdiyinizi bir daha göstərir. Mən Beynəlxalq Olimpiya Komitəsinin bu qərarı və onu yerinə yetirməyimlə fəxr edirəm. Biz, Sizinlə dostluğumuz və ölkənizin idman təşkilatları ilə əlaqələrimizlə də fəxr edirik. Olimpiya hərəkatı çox incə bir hərəkatdır və Sizin kimi təcrübəli rəhbərlərin onu dəstəkləməsinin böyük əhəmiyyəti var".

Öz bayrağı altında 200-dən çox ölkəni birləşdirən Beynəlxalq Olimpiya Komitəsi kimi çox nüfuzlu bir qurumun Azərbaycan idmanının şeriksiz liderinin ümumdünya olimpiya hərəkatında xidmətlərini yüksək qiymətləndirərək, onu öz ali mükafatına layiq görməsi Olimpiya oyunları ilində olduqca xoş əlamət idi. Olimpiya ilində Olimpiada – 2004 hələ başlanmamış olimpiya mükafatlarımızın hesabı açılmışdı.

Bu gün isə biz olimpiyaqabağı 2023-cü ildəyik. Paris – 2024-ə lisenziya xarakterli yarışlara hazırlıq və bu turnirlərdə uğurlu çıxışlar bütün ölkələr kimi, Azərbaycanın da idman təşkilatlarının əsas məqsədidir. Hər bir dövlət gələn il Fransa paytaxtının idman meydanlarında olimpiya startlarında geniş heyətlə təmsil olunmaq istəyir. Əlbəttə, Azərbaycan idmanının ən yaxşı nümayəndələri də çətin sınaqlardan medallara, yüksək beynəlxalq nüfuza aparan yolda Parisə nəinki təkcə mötəbər nümayəndə heyəti ilə yola düşmək, həm də ölkəmizə mümkün qədər çox medal qazandırmaq əzmindədirlər. Onlar yaxşı bilirlər ki, Olimpiya oyunlarında başlıcası iştirak etməkdirsə, medal qazanmaq, fəxri kürsüdə təbrikləri qəbul etmək, xaricdə qələbə şərəfinə dövlət himnimizin əzəmətli sədalarını dinləmək, milli bayrağımızı yüksəklərə ucaltmaq tamam başqa bayramdır və adama xüsusi zövq verir. Bu nin elə ilk günlərindən bəri 100 illik yubileyini qeyd etdiyimiz ulu öndər Heydər Əliyev də, iyulun 31-də Azərbaycan Milli Olimpiya Komitəsinə rəhbərliyinin 26-cı ili tamam olan İlham Əliyev də məhz buna görə həmişə idmanımıza möhkəm dayaq olmuşlar. Deməli, eyni bir dövlətin iki rəhbərinin, üstəlik də, ata ilə oğulun tarixin müxtəlif dövrlərində beynəlxalq olimpiya hərəkatının ali mükafatları ilə təltif olunması nadir hadisədir.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

Adil Cavadlı – 100

# Unudulmaz xatirələr işığında

**Yaşı bir əsri adlamış "Xalq qəzeti"nin (70 il "Kommunist" adı ilə çıxmışdır) ötən əsrdəki fəaliyyətini, bu nəşri milli mətbuatımızın bayraqdarına çevirmiş fədakar qələm sahiblərini göz önünə gətirdikdə onların sırasında, istər-istəməz, Adil Cavadlı da yada düşür...**



Adil Dadaş oğlu Cavadlı 1923-cü ildə Bakıda doğulmuşdur. Əslən Şamaxıdan olan ailə XX əsrin əvvəlindəki dağıdıcı zəlzələdən sonra Bakıya köçmüş və Şirşov-4 (indiki Həsən Abdullayev küçəsi) ünvanında məskunlaşmışdı. Adil Cavadlı da, təqribən, 20 il sonra burada dünyaya göz açmışdır. İndiki 132 nömrəli (o vaxt 14 nömrəli idi) orta məktəbdə oxumuşdur.

əlçatmaz arzu idi və bu, çox az adama nəsib olurdu.

Adil müəllim istər dost-tanış yanında, istərsə də işlədiyi kollektivdə böyük hörmət-izzət sahibi idi. İlk baxışda ciddi görkəmi yad adamları ondan məsafə saxlamağa vadar etsə də, yaxından tanıdıqca, Adil müəllimin nə qədər xeyirxah, qayğıkeş, sadə, nəcib, nəzakətli və səmimi bir insan olduğunu görüb ona bağlanırdılar. Halal, obyektiv, tamənnasız, paxıllıqdan, bədxahlıqdan uzaq bir insan idi. Yorulmaq bilmədən, başını yuxarı qaldırmadan gecə-gündüz işləyirdi.

Redaksiya kollektivinin yığıncaqlarında, kollegiya iclaslarında, letuçkalarda çıxış edərkən, həmişə obyektivliyi gözləyirdi. Hər bir məsələyə onun özünəməxsus münasibəti olurdu. Və onları elə məharətlə təqdim edirdi ki, dediyi fikirlər, verdiyi təkliflər, hətta tutduğu iradlar belə qəbul olunur və məmnunluqla qarşılanırdı. Onun sərtliyi, dönməzliyi qədər, ondan da artıq mülayimliyi və xeyirxahlığı vardı.

Adil müəllimin xeyirxahlığı çoxşaxəli idi: kiməsə əl tutmaq, kömək etmək, yardım göstərməklə kifayətlənmirdi. Hamıya ehtiramla yanaşır, hər şeyə – heyvanlara, bitkiyə, gülə-çiçəyə münasibətdə həssaslıq göstərir, düşmənləri barışdırır, dostları mehribanlaşdırırdı...



Ali məktəbin birinci kursundan könüllü olaraq cəbhəyə getmiş, 1947-ci ilədək hərbi xidmətdə olmuşdur. Ordudan tərxis olunduqdan sonra əmək fəaliyyətinə jurnalistika sahəsində başlamışdır. Bu da təsadüfi deyildi. Adil müəllimin atası – Dadaş Cavadlı Azərbaycanın tanınmış tərcüməçilərindən idi, Cəfər Cabbarlı, İbrahimxəlil İbrahimov, Əfrasiyab Bədəlbəyli, Süleyman Məlikov, Məmmədəli Sidqi və başqaları ilə birgə 1920–30-cu illərdə "Kommunist" qəzeti redaksiyasında işləmişdi.

Adil Cavadlı əvvəlcə "Azərbaycan müəllimi", "Bakı" və "Baku" axşam qəzetlərində müxtəlif vəzifələrdə çalışmış, o cümlədən məsul katib olmuşdur. Onun qəzetçilik bacarığı "Bakı" qəzetində məsul katib işləyərkən özünü daha parlaq şəkildə bürüzə vermişdir. Əslində, o, axşam qəzetinin təməlini qoyanlardan biri idi. "Bakı" ilk "Qızıl qələm" mükafatını məhz Adil Cavadlının verdiyi tərtibatın gözəlliyinə görə almışdı.

Peşəkar qəzetçinin peşəkarlığı diqqətdən yayınmadı. Respublikanın baş qəzeti – "Kommunist"in rəhbərliyi Adil Cavadlını işə dəvət etdi. Bir müddətdən sonra vaxtilə atasının tərcüməçi işlədiyi qəzetdə əvvəlcə məsul katib, sonra isə redaktorun (indiki anlamda baş redaktorun – Q.P.) birinci müavini oldu. Onu da deyək ki, o dövrdə "Kommunist" qəzetində sıravi vəzifədə belə işləmək jurnalistikanı peşə seçənlərin hər biri üçün

Bu fikirlər, sözün həqiqi mənasında, mətbuat cəfakeşi olan, Əməkdar mədəniyyət işçisi Adil Cavadlının 100 illik yubileyi ilə əlaqədar İçərişəhərdəki Muğam klubunda keçirilən mərasimində səsləndi. Yubileylə bağlı yenicə çap edilmiş "Nəsildən-nəslə" kitabının da təqdimatı oldu. Mərasimi Adil müəllimin qızı, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Hacı Qəmər xanım Cavadlı açaraq, tədbir iştirakçılarını salamladıqdan sonra atasının həyat və fəaliyyəti barədə danışdı, ailədə, qonum-qonşularla münasibətdə yaddaqalan məqamlardan söz açdı.

"Xalq qəzeti"nin bölgə müxbiri İlqar Həsənov, yubilyarın uşaqlıq dostu, akademik Kamal Talıbzadənin qızı Ülkər Talıbzadə, Azərbaycan Jurnalistlər Birliyi sədrinin müavini Şahin Babayev, Cavadlılar ailəsinin nümayəndələri Günel Cavadlı - İsayeva, Mahirə Kazım qızı, həmçinin bu sətirlərin müəllifi Adil Cavadlı ilə bağlı şahidi olduqları, eşidib-bildikləri xatirələri dilə gətirdilər. Ümumi fikir bu idi ki, Adil müəllim dünya malında əsla gözü olmayan, halal, mənəviyyatca təmiz, böyük əxlaq sahibi, nəcib bir insan, peşəkar jurnalist kimi yadda qalıb. Allah rəhmət eləsin!

**Qüdrət PİRİYEV, "Xalq qəzeti"**

# "Bakışəhərtikintimexanikləşdirmə" ASC-nin 2022-ci il dekabrın 31-nə mühasibat balansı

*manatla*

| Aktivlər | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| Torpaq, tikili və avadanlıqlar | 1815.34 | 1815.34 |
| Təxirə salınmış vergi aktivləri | | 870.34 |
| Uzunmüddətli debitor borcları | 122012.49 | 122012.49 |
| **Cəmi uzunmüddətli aktivlər** | 123827.83 | 124698.17 |
| Ehtiyatlar | | 10474.45 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 207.55 | 831.36 |
| **Cəmi qısamüddətli aktivlər** | 207.55 | 11305.81 |
| **Cəmi aktivlər** | 124035.38 | 136003.98 |
| **Kapital və öhdəliklər** | | |
| Ödənilmiş nominal (nizamnamə kapitalı) | 41388.00 | 41388.00 |
| Kapital ehtiyatları | 46885.42 | 46885.42 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş **zərər)** | 10770.43 | 22577.3 |
| **Cəmi kapital** | 99043.85 | 110850.72 |
| Uzunmüddətli kreditor borcları | 9830.45 | 9840.95 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | 9830.45 | 9840.95 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | -1528.55 | -1380.60 |
| Sair qısamüddətli kreditor borcları | 16689.63 | 16693.13 |
| **Cəmi qısamüddətli öhdəliklər** | 15161.08 | 15312.31 |
| **Cəmi öhdəliklər** | 24491,53 | 25153,26 |
| **Cəmi kapital və öhdəliklər** | 124035.38 | 136003.98 |

**Mənfəət və zərər haqqında hesabat**

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 0,00 | 0.00 |
| Satışın maya dəyəri | 464.97 | 5377.61 |
| İnzibati xərclər | 464.97 | 5377.61 |
| Hesabat dövründə xalis mənfəət **(zərər)** | -464.97 | -5377.61 |

**Xərclərin xüsusiyyətləri üzrə təsnifat əsasında əməliyyat xərcləri haqqında məlumat**

| | | |
|---|---|---|
| İstifadə edilmiş material ehtiyatları | 350 | 3870.00 |
| Amortizasiya xərcləri | 114..97 | 1507.61 |
| Sair əməliyyat xərcləri | 114.97 | 5377.61 |

**Mənfəət və zərər haqqında hesabat (xərclərin xüsusiyyətləri üzrə)**

| | | |
|---|---|---|
| Satış | 0.00 | 0.00 |
| Sair əməliyyat gəlirləri | | |
| İstifadə edilmiş material ehtiyatları | | |
| İşçi qüvvəsi üzrə xərclər | 350 | 3870 |
| Amortizasiya xərcləri | | |
| Sair əməliyyat xərcləri | 114.97 | 1507.61 |
| Hesabat dövründə xalis mənfəət **(zərər)** | -464.97 | -5377.61 |

**"Bakışəhərtikintimexanikləşdirmə" ASC-nin 2022-ci il üzrə hesabatlarının açıqlanması**

2.1.1. Emitentin tam və qısadılmış adı, VÖEN, dövlət qeydiyyatının tarixi və nömrəsi.

"Bakısəhərtikintimexanikləşdirmə" Açıq Səhmdar Cəmiyyəti, VÖEN-1000163771, 29.03.2002 Ədliyyə Nazirliyi №D-3419

2.1.2. emitentin hüquqi ünvanı və olduğu yer, hüquqi ünvanı - AZ0100, Abşeron rayonu, Quşçuluq sovxozu.

2.1.3. Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkıl yolu ilə yaradıldıqda,yenidən təşkilin forması , həmin hüquqi şəxslərin adları dəyişiklik olmayıb.

2.1.4. Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adları, olduqları yer və qeydiyyatları haqqında məlumatlar dəyişiklik olmayıb.

2.1.5. Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması,hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı,hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab edilməsi üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti-yoxdur.

2.1.6. Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qruplar) adları –yoxdur.

2.1.7. Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri şəxsi daşınmaz əmlakın istismara və kirayəyə verilməsi.

2.1.8. Emitentin lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri- yoxdur.

2.1.9. Emitentin təklif etdiyi məhsullar və xidmətlər – yoxdur.

2.1.10. Emitentin işçilərinin sayı və onların rüblük dinamikası siyahı sayı – 1 nəfərdir.

2.1.11. Emitentin idarəetmə orqanları haqqında məlumat - direktorlar şurası, icra orqanı, audit komitəsi, onların üzvlərinin adları, soy adları.

İdarə heyətinin sədri – Tağı Zeynalabdin oğlu Mirzəyev.

2.1.12. Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayrılıqda sayı;

Fiziki - 101 nəfər.

Hüquqi - yoxdur.

2.1.14.Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı)- yoxdur.

2.1.15. Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat.

2.1.15.1. Yığıncağın keçirilmə tarixi və yeri (ünvan).

Hesabat ilinin yığıncağı 2023-cü il iyun ayının 22-də, Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül qəsəbəsi, 3095-ci məhəllədə keçirilmişdir.

2.1.15.2. Ümumi yığıncaqda qəbul edilmiş qərarlar;

1. 2023-cü il yanvarın 1-nə olan balansı və hesabatları təsdiqləmə.

2.1.16. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir).

2.1.16.1 investisiya qiymətli kağızın növü və forması;

-növü – adı, adlı səhm.

- forması - sənədsiz.

2.1.16.2. İnvestisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi;

- buraxılışın nömrəsi - 49.

-dövlət qeydiyyat nömrəsi - 1010375K 18.04.2002-ci il.

2.1.16.3 İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri;

-səhmlərin miqdarı – 20694 ədəd, nominal dəyəri – 2 manatdır.

2.1.16.4. İnvestisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri:

-səhmlərin rəsmi nominal dəyəri - 41388 manatdır.

2.1.16.5. Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə dividendlərin məbləği göstərilir);

-2021-ci il üzrə dividend haqqı ödənilməmişdir.

2.1.16.6.Faizli istiqrazlar buraxılışı haqqında məlumatlar – istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi -yoxdur.

2.1.16.7. İnvestisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda)- yoxdur.

2.1.17. Emitent tərəfindən bağlanmış xüsusi əhamiyyətli əqdlər barədə məlumatlar - yoxdur.

2.1.17.1 əqdin məbləği:

2.1.17.2 Hesabat tarixinə əqdin ödənilməmiş hissəsi-yoxdur.

2.1.18. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar- yoxdur.

2.1.18.1.Bağlanılmış əqin mahiyyəti, tarixi və məbləği.

2.1.18.2. Aidiyyəti şəxs barədə məlumat və emitentlə əlaqəsi.

2.1.19. İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi- 22 iyun 2023-cü il.

2.1.20. Hesabatın açıqlama mənbəyi haqqında məlumat- mikro sahibkarıq.

# KİTAB RƏFİ




**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi şurasının qərarı ilə Ədəbi tənqid şöbəsinin müdiri, filologiya elmləri doktoru Vaqif Yusiflinin 75 illiyinə həsr edilmiş kitab nəşr edilib.**

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli "Azərbaycan ədəbi tənqidində Vaqif Yusifli faktoru" başlıqlı "Ön söz"ündə yubilyarın zəngin yaradıcılığını yüksək qiymətləndirib.

Kitabda tanınmış sənətkarların, elm xadimlərinin görkəmli tənqidçi Vaqif Yusiflinin anadan olmasının 75 illiyinə həsr etdikləri yazıları toplanıb. Anarın "Bədii sözün keşikçisi", Nəriman Həsənzadənin "Daimi axtarışda", Sabir Rüstəmxanlının "Bu, Vaqif Yusiflidir", Tehran Əlişanoğlunun "Tənqidçi olmağın sirri – Vaqif Yusifli tezisləri" və digər yazılar bu sıradandır. Kitabın "Özü və əsərləri haqqında" bölümündə Bəxtiyar Vahabzadənin, Fikrət Qocanın, Kamal Talıbzadənin, Cavanşir Yusiflinin və başqalarının müxtəlif illərdə Vaqif Yusifli haqqında yazdıqları yazılar da cəmlənib.

***




**"Şuşa" qəzetinin redaktoru, tanınmış tədqiqatçı-publisist Vasif Quliyevin yenicə çapdan çıxmış "Bu qala – daşlı qala" adlı kitabı Azərbaycanın mədəniyyət paytaxtı haqqında ensiklopedik məlumatlarla zəngindir.**

Şuşa şəhərinin bünövrəsinin qoyulduğu vaxtdan başlamış günümüzə qədərki bütöv bir dövrü əhatə edən kitabda şəhərin küçə və məhəllələri, sosial obyektləri və ona şöhrət gətirən ayrı-ayrı istedadlı ziyalılarından, sənət adamlarından bəhs olunur. İndiyədək 20-dən çox kitabın müəllifi olan Vasif Quliyev Bakı, Moskva və Tbilisinin arxivlərində apardığı axtarışlar nəticəsində əldə etdiyi çoxlu maraqlı mənbə və məlumatlar əsasında Qarabağ tarixi ilə əlaqədar çoxlu maraqlı faktlar üzə çıxarıb. Həmin məlumatların bir hissəsi bu kitabda öz əksini tapıb. AZƏRTAC-ın müxbiri Süleyman Qaradağlının araşdırmaçı-jurnalistlə müsahibələri də kitabda yer alıb. Yeni kitabı həm oxucular, həm də Şuşanı tanıyıb–tanıtmaq istəyən hər kəs üçün elmi, tarixi mənbə kimi dəyərləndirmək olar.

"Bu qala–daşlı qala" kitabının redaktoru və "Ön söz"ünün müəllifi Mehman Cavadoğludur.

***Ə.ƏLİYEV, "Xalq qəzeti"***

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 158 (30274) 29 iyul 2023-cü il, şənbə
veb-sayt: www.xalqqazeti.az

## İdman xəbərləri

## Cudoçularımızın 9 Maribor medalı



**Sloveniyanın Maribor şəhərində keçirilən XVII Avropa Gənclər Olimpiya Festivalı davam edir. Festivalın altıncı günündə cüdoçularımız Aslan Kotsoyev (90 kq), Ramazan Əhmədov (+90 kq) mübarizə aparıblar. Bütün rəqiblərini məğlub edərək finala yüksəlmiş A.Katsoyev həlledici mərhələdə də böyük inamla mübarizə apararaq qalib adını qazanıb. Komandamızın digər üzvü R.Əhmədov isə yalnız finalda məğlub olaraq gümüş medalla kifayətlənib.**

Beləliklə, bu nüfuzlu yarışda böyük uğurla çıxış edən cüdoçularımız fərdi yarışları 9 medalla (3 qızıl, 2 gümüş, 4 bürünc medal) başa vuraraq ümumi komanda hesabında birinci yeri tutublar.

Qeyd edək ki, bundan əvvəl tatami ustalarımız 7 medala sahib olublar. Komandamızın aktivinə qızıl medalları Vüsalə Hacıyeva (48 kq) və Xədicə Qədəşova (52 kq) yazdırıblar. Süleyman Şükürov (73 kq) gümüş, Məhəmməd Musayev (60 kq), Cəsur İbadlı (66 kq), Nihad Məmişov (50 kq) və Ayxan Mirzəzadə (55 kq) bürünc medal qazanıblar.

## Düşənbədə boksçularımız 4 medal qazanıblar



**Tacikistanın paytaxtı Düşənbədə keçirilən beynəlxalq turnirdə Azərbaycanın yeniyetmə boksçuları 1 qızıl, 1 gümüş, 2 bürünc medal əldə ediblər.**

Azərbaycan Boks Federasiyasından "Xalq qəzeti"nə bildirilib ki, komandamızın üzvü Məhəmməd Cəfərov (+80 kq) bütün rəqiblərinə qalib gələrək turnirin qalibi olub. Əli Baxışov (50 kq) ikinci, Məhəmmədəli Məmmədli (48 kq) və Bağır Əmirxanlı (50 kq) üçüncü yerlərə sahib olublar.

Turnirdə yığmamızla yanaşı, Özbəkistan, Tacikistan, Qazaxıstandan 155 idmançı iştirak edib.

## "Turan Tovuz"un Türkiyə qələbəsi



**"Turan Tovuz" futbol klubu Türkiyədə təlim-məşq toplanışı çərçivəsində sonuncu yoxlama oyununda gücünü sınayıb.**

Tanzaniyanın "Simba" komandası ilə qarşılaşan Tovuz təmsilçisi rəqibi üzərində 1:0 hesablı qələbə qazanıb. Matçın yeganə qolunu Roderik Miller vurub.

***L.SABİRQIZI, "Xalq qəzeti"***

## Texnologiya yenilikləri



## Nyu-York metropolitenini süni zəka izləyir

***Nyu-York Nəqliyyat Departamentində (MTA) metropoliten stansiyalarının əksəriyyətində biletsiz istifadə hallarının qarşısını almaq üçün süni zəkadan istifadə olunur. Belə ki, statistikaya əsasən, Nyu-York metropolitenində biletsiz sərnişinlərin 50 faizi ehtiyat çıxışdan istifadə edir. Onlardan 20 faizi turniket üzərindən, 16 faizi stansiyalara giriş üçün olan maneənin arasından, 12 faizi isə turniketin altından keçir.***

İzlənmə nəticəsində biletsiz istifadə halları daha çox axşam saatlarında, daha az isə səhərlər müşahidə edilib. Alınan məlumatlar süni zəka alqoritmi vasitəsilə işləyən kameralar vasitəsilə əldə olunub. MTA-nın hesablamasına əsasən, 2022-ci ildə ödənişsiz gediş nəticəsində, ümumilikdə, 690 milyon dollar vəsait itirilib.

MTA-nın əməkdaşı Coana Flores qanunu pozanlar haqqında hələ ki, polisə məlumatın ötürülmədiyini söyləyib. O, hazırda dələduzlar tərəfindən vurulan ziyanın qiymətləndirilməsi işinə baxıldığını və videogörüntülərin MTA-nın serverlərində "məhdud müddətə" saxlanıldığını açıqlayıb.

***Səadət RZAYEVA, "Xalq qəzeti"***

## Mədəniyyət xəbərləri

***Rejissor Asif Rüstəmovun "Mərmər soyuğu" filmi Serbiyada keçirilən 30-cu Paliç Avropa Film Festivalında "Münsiflər heyətinin xüsusi mükafatı"na layiq görülüb.***



Festivalın münsifləri ekran əsərini cəmiyyətdə yaşanan bir nəslin travmasını əks etdirən film kimi dəyərləndiriblər.

Qeyd edək ki, "Azərbaycanfilm" kinostudiyası, İctimai Televiziya, Bakı Media Mərkəzi və Fransanın "Arizona Films" şirkətlərinin birgə istehsalı olan "Mərmər soyuğu" filmi Mədəniyyət Nazirliyinin dəstəyi ilə ərsəyə gəlib.

***

***Bakıda II Milli Qurama Festivalı başlanıb. Qədim İçərişəhər ərazisində yürüşlə start götürən festival çərçivəsində orada və Qala qoruqlarının bir neçə məkanında paytaxt sakinləri və turistlərin tikdikləri quramalar nümayiş etdirilib.***



Festival çərçivəsində "Ənənəvi Qurama" sərgisinin nümayişi, ustad dərslərinin keçirilməsi, quramaçı sənətkarların əl işlərindən ibarət satış-yarmarkaların təşkili, fond kolleksiyalarından ibarət quramaların nümayişi, habelə həvəskar kolleksioner quramaçıların əl işlərinin nümayişi nəzərdə tutulur. Festival bölgələri də əhatə edəcək.

***

***Qaradağ rayonunda keçirilən növbəti maarifləndirici görüşdə əsas mövzu sağlam həyat tərzi və davranış riski amilləri olub.***



Görüşdə maarifləndirici materialların (videoçarxlar, bukletlər, plakatlar və s.) hazırlanması və aidiyyəti mobil tətbiqlərin istifadəsi ilə bağlı ətraflı məlumat verilib. Tədbirdə iştirak edən müvafiq qurumların nümayəndələrinin nəzərinə çatdırılıb ki, əhalinin bu istiqamətdə maarifləndirilməsi üçün müvafiq tədbirlərin icrasını təmin etsinlər.

***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***

## NASA-da elektrik kəsilməsi ...

***ABŞ Aerokosmik Agentliyində (NASA) elektrik enerjisinin kəsilməsi Beynəlxalq Kosmik Stansiya (BKS) ilə əlaqənin qısa müddətə dayanmasına səbəb olub.***



Texas ştatının Hyuston şəhərindəki "Johnson Space Center"də baş verən kəsintidən dərhal sonra ehtiyat sistem işə salınıb. Astronavtlarla müvəqqəti ünsiyyət problemi yaşanıb.

Proqram rəhbəri Joel Montalbano astronavtlar üçün heç bir təhlükənin olmadığını bildirərək, ehtiyat sistemlərin 90 dəqiqə ərzində tam nəzarətə alındığını və kəsilmənin 20-ci dəqiqəsində astronavtların vəziyyətlə bağlı xəbərdar edildiyini bildirib. O, ilk dəfə baş verən fasilə səbəbiylə NASA-nın ehtiyat sistemlərdən istifadə etməli olduğunu da qeyd edib.

***Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"***

## "Buta" və AZAL birləşir

**Bu ilin oktyabr ayında "Azərbaycan Hava Yolları" QSC (AZAL) və aşağı büdcəli – "Buta Airways" vahid brend altında birləşəcək. Hər 2 aviaşirkətin ən yaxşı keyfiyyətləri nəzərə alınmaqla, sərnişinlər üçün sərfəli tariflərlə səyahət etmək imkanları daha da genişləndiriləcək.**



Bu da, müştərilərin səyahətlərini rahat planlamasını və onlara göstərilən xidmət səviyyəsində artımı təmin edəcək. Sərnişinlər üçün aviadaşımaları daha əlçatan etməklə AZAL bütün reyslərində yeni "Buta Budget" baqajsız tarifi təklif edəcək.

Bundan əlavə, bütün tariflərə əl yükü daxil ediləcək və "Buta Budget" istisna olmaqla baqajın daşınma norması artırılacaq. Həmçinin, sərnişinlərə yenilənmiş menyu təqdim olunacaq.

İstiqamətdən asılı olmayaraq bütün reyslərin biletlərini vahid www.azal.az internet saytı üzərindən və AZAL mobil tətbiqi vasitəsilə bron etmək və ödənişi həyata keçirmək mümkün olacaq.

***F. SALMANOVA, "Xalq qəzeti"***

## Maraq dünyamız

### Makaronun 4 min il yaşı var



***2002-ci ildə arxeoloqlar Çinin Tsinhay əyalətindəki Latsjia (ölkənin şimal-şərqindəki qədim şəhər) xarabalıqlarında qazıntı işləri apardılar.***

Arxeoloqların tapıntıları arasında gil qab da olub. Qabı açdıqda içərisində yaxşı saxlanmış əriştələr tapılıb. Alimlər əriştələrin yaşını müəyyən ediblər. Məlum olub ki, onlar, ən azı, 4 min il əvvəl hazırlanıb.

Buna görə də belə bir nəzəriyyə var ki, makaron Çində icad edilib və Marko Polo bu resepti çox əsrlər sonra Avropaya gətirib. Ola bilsin ki, Çin əriştələri və italyan makaronları uzaq "əmiuşağı"dır.

### İnsan 25 yaşdan sonra böyümür

***İnsanın doğulduğu anda beynində 14 milyard hüceyrə olur. Ölənə qədər bu rəqəm artmır, əksinə, 25 ildən sonra gündə 100 min azalır.***




Bir səhifəni oxumağa sərf edilən bir dəqiqədə, təxminən, 70 hüceyrə ölür. 40 yaşından sonra beynin deqradasiyası kəskin surətdə sürətlənir, 50 yaşdan sonra isə neyronlar (sinir hüceyrələri) quruyur və beynin həcmi kiçilir.

Gözün içindəki tor qişası, təxminən, 650 kvadratmillimetr ərazini əhatə edir və 137 milyon işığa həssas hüceyrədən ibarətdir

Səhər saatlarında adamın boyu axşamdan, təxminən, 8 millimetr çoxdur.

***P.ƏFƏNDİ, "Xalq qəzeti"***

## Sağlamlıq

## Qarın niyə şişir?

***Şişman qarın təkcə zahiri eybəcərlik deyil, həm də sağlamlığın pozulmasının göstəricisidir. Mədədə şişkinlik, qarında köp hər 10 insandan birinə əziyyət verir. Səbəbi isə 90 faiz necə qidalanmağımızdır.***



Qastroenteroloq Aleksandra Alisovanın sözlərinə görə, meyvə şəkəri, yeni fruktoza yalnız meyvə və tərəvəzlərin tərkibində deyil, həm də ondan tez-tez sənaye məhsullarını şirinləşdirmək üçün istifadə olunur. Fruktoza kiçik bağırsaqdan qana məhdud dərəcədə sovrula bilər. Buna görə də meyvələrdə deyil, zərərli sənaye məhsulları ilə də ehtiyatlı olmaq lazımdır. Bunlar hansılardır?

– Çörək və qatıq, həmçinin limonad, kola, ketçup kimi souslar.

Meyvələr nə qədər şirin olarsa, şişkinlik riski bir o qədər yüksəkdir. Tərkibində yüksək fruktoza olduğu üçün onlar gec həzm olunur.

**Aşağıdakı meyvə növlərində fruktoza xüsusilə yüksəkdir:**

– Qarpız, üzüm, şaftalı, yetişmiş banan, gavalı, kişmiş.

Tərəvəzlər də faydalıdır, lakin təəssüf ki, onlar da meteorizmə səbəb ola bilər.

**Ən çox fruktoza bu tərəvəzlərdə olur:**

– Qulançar, soğan, uzun soğan, kəvər, ənginar, çuğundur.

Buğda, arpa və çovdar kimi taxıllarda qlüten var. O, dözümsüzlüyü olan insanlarda şişkinliyə səbəb ola bilər. Bunlar bağırsaqlarda stress yaradır.

***Z.HÜSEYNLİ, "Xalq qəzeti"***

## Proqnoz




Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyulun 29-da Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Güclü şimal-qərb küləyi əsəcək. Gecə 20-25°, gündüz 25-28° isti olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu:

Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq.

Azərbaycanın əksər rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər dağlıq ərazilərdə duman olacaq. Güclü qərb küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 30-35°, dağlarda gecə 9-14°, gündüz 15-20° isti olacaq.

***Q. QASIMOV, "Xalq qəzeti"***

## ALLAH RƏHMƏT ELƏSİN

"Odlar Yurdu" Universitetinin rektoru Əhməd Vəliyev və universitetin kollektivi Bakı Dövlət Universitetinin ümumi işlər üzrə prorektoru Vüqar Şahinzadəyə atası

**İLHAM MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4626
SİFARİŞ 1854
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00